QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 160 (6360) 7 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.



## Hikmət Hacıyev: "Ermənistanda kimlərsə revanşla bağlı düşünəcəksə..."



"Prezidentin qoyduğu tapşırıqlara və təlimatlara uyğun olaraq, Azərbaycanın işğaldan azad olunan torpaqlarında genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçirilir". SİA-nın məlumatına görə...

Bax 3

## Sorosun USAİD yolu ilə Azərbaycanda yaratdığı agenturası haqqında kitab




"İnqilablar mühəndisi" kimi adlandırılan, lakin insanların tökülən qanları, dövlət çevrilişəri, tənəzzüllərə uğratmalar vasitəsi ilə milyardlar qazanan "Açıq Cəmiyyət İnstitu-tu"nun başçısı, öz adını daşıyan fondun...

Bax 6

## Azərbaycanın Rus İcması növbəti humanitar tədbirini Gəncədə keçirib



Azərbaycanın Rus İcması ölkəmizdə daim humanitar tədbirlərin keçirilməsində fəallıq göstərir. İkinci Qarabağ savaşında Azərbaycan...

Bax 4

# Vətəndaş amili prioritet olan "yol xəritəsi"



Bax 2

## "Reket" jurnalistlər mətbuatın üz qarasıdır"



Bax 7

## Azərbaycanın 25 illik paralimpiya tarixində yeni səhifə

Azərbaycan "Tokio-2020" Yay Paralimpiya Oyunlarında iştirakını uğurla...




Bax 7

## 2 sentyabr: qırmızı təqvimin qaraya çevrilməsi

Zaman keçdikcə Ermənistanda sağlam düşünmək istəyənlərin sayında artım müşahidə edilir. Obyektiv düşünmək iddiasında olanlar öncə regionda...



Bax 10



## Fransa portalı: İtkin düşmüş və girov götürülmüş 4 min azərbaycanlıya görə Ermənistan cəzalandırılmalıdır

*Fransanın "Mediapart" portalında "Beynəlxalq İtkinlər Günü: Azərbaycan 4000 itkinini xatırlayır" sərlövhəli...*

Bax 3



## Erməni cərrahın etirafları: Hər gün saysız-hesabsız yaralı görürdüm

İkinci Qarabağ müharibəsinin başa çatmasından 10 ay keçsə də, ağır məğlubiyyətlə üzləşən...

Bax 6



## Provizor, dovşan qovan, hətta qovulan, nəhayət ki, Əli Əliyev...

Son günlər özünü cəmiyyətə Vətəndaş Inkişaf...

Bax 14




## "Status" deyənlərə rəsmi Bakıdan cavab - Qarabağda yeni dövr başlayır

## Vüqar Rəhimzadə: "Füzuli Beynəlxalq Hava Limanı Qarabağın sülhə açılan hava qapısıdır"



Bax 5

## "Artsax"ın saxta "30 illik müstəqilliyi" gorbagor oldu



Bax 13

## "Euro-football" saytı: Erməni nağılının sərt sonu çatıb




Bax 16



# Vətəndaş amili prioritet olan "yol xəritəsi"

**Ölkəmizdə quruculuq işlərinə, iqtisadi layihələtin, yeni-yeni sənaye müəssisələrinin, müxtəlif komplekslərin açılışına, yaşayış və fəaliyyət şəraitinin daha da yaxşılaşdırılmasına və ümumilikdə vətəndaşların rifah halının daha da yüksəldilməsinə ölkə başçısının, Cənab Prezidentin diqqət və qayğısı göz önündədir, danılmazdır. Demək olar ki, 30 ilə qədər işğal altında olan torpaqların işğaldan azad edilməsinin və həmin ərazilərdə quruculuq abadlıq işlərinin fonunda digər regionların, ayrı-ayrı şəhər və rayonların, hətta kəndlərin belə abadlaşdırılması həmin diqqət və qayğının bariz nümunəsidir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycan dövləti vətəndaşların rifah halını hər zaman prioritet hesab edir, bu istiqamətdə lazımi tədbirlər görür və ölkənin iqtisadi inkişafı istiqamətində görülən işlər, quruculuq-abadlıq işləri bunu təsdiq edir.**

Ölkə başçısı sentyabrın 3-də Sumqayıt Kimya Sənaye Parkında "Azmonbat" Məhdud Məsuliyyətli Cəmiyyətinin açılışında iştirak edib. Diqqətə çatdıraq ki, Azərbaycanda sənayeləşmə prosesinin ardıcıl davam etdirilməsi, həmçinin qeyri-neft sənayesinin inkişafının Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindən olduğu danılmazdır və ölkə başçısının bu açılışda da iştirakı təsdiq edir ki, bu siyasət hər dəfə öz təsdiqini tapır.

Artıq Azərbaycanda 5 sənaye parkı fəaliyyət göstərir və bu, heç də təsadüfi deyil. Belə ki, ölkəmizdə sənaye parklarının yaradılması istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından çox əhəmiyyətlidir. Hazırda bütün dünyada pandemiya ilə əlaqədar arzuolunmaz vəziyyətin hökm sürməsinə, bir çox qabaqcıl ölkələrdə iqtisadi-maliyyə problemlərinin olmazına baxmayaraq, ölkəmizdə çox böyük işlər görülür, iqtisadiyyatın digər şaxələri ilə bərabər, sənayenin inkişafına da xüsusi önəm verilir. Çox sevindirici haldır ki, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi üçün sistemli tədbirlər həyata keçirilir və məhz sənaye partklarının yardılması da bu baxımdan qiymətləndirilməlidir.

Nəzərə çatdıraq ki, sənaye parklarının yaradılması sadalananlarla yanaşı, eləcə də məşğulluq səviyyəsinin artırılmasına, işsizliyin durmadan aradan qaldırılmasına öz töhvələrini verməkdədir. Xatırladaq ki, Sumqayıt Kimya Sənaye Parkında 5500-dək insan daimi işlə təmin edilib. Parkda 24 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və onlardan 17-si istehsala başlayıb. Növbəti mərhələdə daha 7 rezidentin fəaliyyətə başlaması nəzərdə tutulur. Bütün bunlar isə ondan xəbər verir ki, yaradılan sənaye parkları vətəndaşların işlə təmin edilməsinə, onların yaşayış şəraitinin, nəticədə rifah halının daha da yaxşılaşdırılmasına əsaslı zəmin yaradır. Bunu da diqqətə çatdırmaq yerinə düşərdi ki, bu zəmin məhz ölkə başçısının rəhbərliyi ilə yaradılır və Cənab Prezidentin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir.

Ölkə başçısı həmçinin Enerji sistemin Reabilitasiya Proqramı çərçivəsində inşa olunan "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışında da iştirak edib. Cənab Prezidentə görülən işlər barədə məlumat verilib. Qeyd olunub ki, son illərdə Azərbaycanda enerjisistemin maddi-texniki bazasının möhkəmləndirilməsi, ölkəmizin enerji potensialının daha da artırılması, yeni elektrik stansiyaları və yarımstansiyaların inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində çox mühüm layihələr icra olunub. Əlbəttə ki, bütün bunlar dövlətimizin başçısının tapşırığına əsasən 2018-ci ilin sonundan Enerjisistemin Reabilitasiya Proqramının qəbul edilərək icrasına başlanılması istiqamətdə həyata keçirilən işlər arasında xüsusi əhəmiyyəti ilə seçilir. Çünki həmin Proqramın icrasına vaxtında başlanaraq təcili işlər görülmədiyi halda 2019-cu və 2020-ci illərin yayında artan tələbatın fonunda, eləcə də Kür və Xəzərdə su səviyyəsinin kəskin aşağı düşməsi fonunda enerjisistemdə problemlər yarana bilərdi. Məhz bu problemlərin qarşısının alınması üçün vaxtında verilən qərarlar ölkə başçısının uzaqgörən, məqsədli, düşünülmüş siyasətindən, eləcə də vətəndaş amilinin dövlət siyasətinin qayəsini təşkil etdiyindən xəbər verir.

Cənab Prezident İlham Əliyev Sumqayıt Məhkəmə Kompleksinin açılışında da iştirak edib və kompleksdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verilib. Görünən odur ki, ölkəmizdə digər sahələrdə olduğu kimi, məhkəmə sistemində də islahatlar uğurla davam etdirilir və məhz islahatların icrası ilə bağlı görülən kompleks qanunvericilik və praktiki tədbirlər üçün Prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı Fərman mühüm "yol xəritəsi" sayılır. Yeni regional inzibati və kommersiya məhkəmələrinin təsis edilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlərin yaradılması, məhkəmələrin və hakimlərin təminatının gücləndirilməsi məhz həmin "yol xəritəsi" sayəsində öz həllini tapmaqdadır. Beləliklə, sözügedən sahədə infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində yeni məhkəmə bina və komplekslərinin inşası, onların ən müasir İKT qurğuları ilə təchizi görülən işlərin təzahürüdür və məhz Sumqayıt Məhkəmə Kompleksinin inşası da bu istiqamətində icra olunan layihələrdəndir.

Qeyd edək ki, kompleks Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində inşa olunub və öz funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni, o cümlədən Sumqayıt apellyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir. Vurğulamaq yerinə düşərdi ki, "Bir qapı" prinsipi ilə fəaliyyət göstərəcək məhkəmə kompleksi ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına xidmət edəcək, hansıki, bu da vətəndaşların rahatlığının nəzərə alınması deməkdir. Əslində isə bu həm də, dövlət başçısının sosial ədalətə əsaslanan islahatlarına, eləcə də birinci xanım Mehriban Əliyevanın inklüziv cəmiyyətin inkişafı üzrə təşəbbüslərinə uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər görüldüyünü təsdiqləyir. Bütövlükdə bütün bu işlər vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılmasına, onlara yüksəkkeyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, şəffaflığın artırılmasına, bütövlükdə məhkəmə hakimiyyətinə ictimai etimadın yüksəldilməsinə yönəlib.

Ölkə başçısı Sumqayıtda eyni zamanda Heydər Əliyev Fondu tərəfindən yeni inşa olunan 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə də tanış olub. Sumqayıt şəhər icra hakimiyyətinin başçısı məktəbdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verib. Qeyd olunub ki, həmin təhsil müəssisəsində 42 sinif otağı, fənn kabinələri, laboratoriyalar, əmək və hərbi təlim otaqları, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Yaradılan bu şərait təbii ki, son illərdə dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsində aparılan islahatların uğurlu nəticələrindəndir.

Heç şübhəsiz ki, bütün bunlar Azərbaycanda təhsil sahəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının əyani sübutudur və mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində aparılan işlərin tərkib hissəsi kimi qiymətləndirilir. Əlbəttə ki, bu istiqamətdə görülən işlər həm də Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısının bariz nümunəsidir və bu da təsadüfi deyil. Ona görə ki, Azərbaycan dövlətinin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin bilikli və savadlı, yüksək intellektual potensiala malik olmasına maraqlı olmasıdır və bu istiqamətdə də fəaliyyəti danılmazdır.

Sumqayıt şəhərində güzəştli mənzil layihəsi çərçivəsində növbəti yaşayış kompleksinin təməlinin qoyulması və bu təməlqoyma mərasimində ölkə rəhbərinin iştirakı da diqqətdən yayınan məqam deyil. Diqqətə çatdıraq ki, Sumqayıt şəhərində növbəti güzəştli mənzil layihəsi 2 hektar ərazini əhatə edir və burada doqquz, on iki və on altı mərtəbəli 11 bina inşa olunacaq, hansıki bununla da mənzillərin ümumi sayı 466 olacaq və bu da vətəndaşların güzəştli mənzillərlə təmin olunması, nəticədə yaşayış şəraitinin yaxşılaşdırılması deməkdir. Ərazidə, həmçinin 90 yerlik uşaq bağçasının da inşa ediləcəyi, güzəştli şərtlərlə təklif edilən bütün mənzillərin tam təmirli olacağı, mənzillərin mətbəx mebeli, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacı ilə təmin ediləcəyi, eləcə də həmin mənzillərin satışının həm güzəştli ipoteka kreditindən istifadə etməklə, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə aparılacağı bir daha təsdiq edir ki, Azərbaycan vətəndaşı ölkə başçısının qayğısı ilə əhatə olunub və Azərbaycan dövləti üçün vətəndaşların şəraitinin daha da yaxşılaşdırılması hər zaman olduğu kimi, yenə də prioritet hesab olunur.

Nəzərə almaq lazımdır ki, dünyanı bürüyən pandemiya şəraitində Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial məsələlərin həllinə xüsusi yer, diqqət ayırır. Xüsusilə ölkə başçısının vətəndaşların qayğısına qaldığının hər an şahidiyik. Hazırda dünyada baş verən iqtisadi böhran fonunda ölkəmizdə Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial məsələlərinin həllinə yüksək dərəcədə diqqət, qayğı və həssaslıqla yanaşması təkzibedilməzdir. Əlbəttə ki, ölkəmizin iqtisadi qüdrəti, iqtisadi inkişafı, yeni layihələrin gerçəkləşdirilməsi, yeni komplekslərin istifadəyə verilməsi, əsaslı təmir edilməsi, şəraitinin daha da yaxşılaşdırılması, Azərbaycan vətəndaşının sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, rifah halının gücləndirilməsi, bütövlükdə, vətəndaş amili dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayanır və görülən işlər də təsdiq edir ki, bu siyasət uğurla davam etdirilir. Bir sözlə, vətəndaş amili prioritet olan "yol xəritəsi" uğura aparır.

***İnam Hacıyev***

## Rəsmi xronika

Prezident İlham Əliyev Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev F.Ş.Əliyevanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncama əsasən, Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Fərəh Şirməmməd qızı Əliyeva "Şöhrət" ordeni ilə təltif edilib.

***

Prezident İlham Əliyev Ağdaş, Ağsu, İsmayıllı, Qəbələ, Qobustan, Oğuz və Şamaxı rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# Hikmət Hacıyev: "Ermənistanda kimlərsə revanşla bağlı düşünəcəksə..."

**"Prezidentin qoyduğu tapşırıqlara və təlimatlara uyğun olaraq, Azərbaycanın işğaldan azad olunan torpaqlarında genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçirilir". SİA-nın məlumatına görə, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Haber Global"a müsahibəsində bildirib.**




O, Şuşa şəhərinə çəkilən Zəfər yolunun olduğunu da xatırladıb: "Amma cənab Prezidentin dediyi kimi Azərbaycan dövlətinin istəyi ən tez zamanda məcburi köçkünlərimizin öz torpaqlarına şərəfli və güvənli şəkildə qayıtması təmin olunmasıdır. Cənab Prezident söyləmişdi ki, biz zamana qarşı işləyirik, amma inşallah bizim xalqımızın, dövlətimizin niyyətidir ki, məcburi köçkünlərimiz öz dədə-baba torpaqlarına qayıtsınlar".

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın dövlət olaraq qonşuları ilə normal şəkildə yaşamağı bacarmağına ehtiyac var: "Ermənistanın bu gün bəlkə də silah-sursata, mərmiyə ehtiyacı yoxdur. Ermənistan silah alır, ordu qurmaq istəyir. Bu kimi işlərin Ermənistanın özü-özünü təsəlli etmək cəhdlərindən başqa bir şey olduğunu düşünmürük. Əgər Ermənistanda kimlərsə revanşla bağlı düşünəcəksə, bu, onların etdikləri növbəti tarixi xəta olmuş olacaq. Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Bundan sonra da öz sərhədlərinin mühafizəsini, vətəndaşlarının təhlükəsizliyini təmin etməkdə davam edəcək".

"Zəngəzur dəhlizinin açılması məsələsində üçtərəfli təmaslar davam edir. Dəhlizin açılması məsələsi 10 noyabr tarixində imzalanan üçtərəfli bəyanatın bir tərkib hissəsidir. Ona görə bu məsələdə də Ermənistanın bir öhdəliyi var. Nəticə etibarı ilə regionumuzda əlaqələrin daha da yaxşılaşdırılması baxımından hər kəs üçün yaxşı fürsət olacaq. Amma təəssüf ki, bu məsələ ilə bağlı Ermənistanda qeyri-rasional, məntiqsiz fikirlər görürük", - H.Hacıyev əlavə edib.

Prezidentin köməkçisi bildirib ki, 30 illik münaqişə müddətində Ermənistan tərəfi nümayişkaranə şəkildə Azərbaycanın mədəni və islam irsi işğal altındakı torpaqlarda məhv edirdi:

"Dəfələrlə UNESCO-ya müraciət etdik. Cavabda isə onun siyasi təşkilat olmadığı, Minsk qrupu rəhbərlərinin məsələ ilə maraqlandıqları və UNESCO-nun bu məsələ ilə məşğul olmaq iqtidarında olmadığı qeyd edilib. Tarixi, mədəni irs elə bir şeydir ki, binaları yenidən tikmək olar, amma mədəni, xüsusilə də tarixi irsi bərpa etmək çox çətin olur. Bu, təkcə Azərbaycanın deyil, dünya mədəniyyətinin tərkib hissəsidir. UNESCO tərəfindən regiona gəlməklə bağlı müəyyən hazırlıq ifadə olunmuşdu. Biz onları qəbul etməyə hazırıq. Silahlı münaqişələr zamanı mədəni irsin qorunması ilə əlaqədar Konvensiya əsas olmalı, onlara mandat verməlidir. Bunun əsasında da bütün mədəni irsimizin qiymətləndirilməsi həyata keçirilməli, onlara dəymiş ziyanın qiymətləndirilərək beynəlxalq ictimaiyyətə təqdim olunmalıdır".

## Qəddafinin oğlu İstanbula gəlib

Ərəb Baharı tərəfindən devrilən Liviyanın keçmiş lideri Müəmmər Qəddafinin oğlu Sədi Qəddafinin sərbəst buraxılmasından sonra İstanbula xüsusi təyyarə ilə gəldiyi öyrənilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, Liviyada sərbəst buraxılan Sadi Qəddafini daşıyan xüsusi təyyarə gecə İstanbul Atatürk Hava Limanına enib.

*Turqay*



## Fransa portalı: İtkin düşmüş və girov götürülmüş 4 min azərbaycanlıya görə Ermənistan cəzalandırılmalıdır

Fransanın "Mediapart" portalında "Beynəlxalq İtkinlər Günü: Azərbaycan 4000 itkinini xatırlayır" sərlövhəli məqalə dərc olunub.




AZƏRTAC xəbər verir ki, məqalədə ötən əsrin 90-cı illərində Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzündən, Birinci Qarabağ müharibəsindən, bu müharibə zamanı 4000 azərbaycanlının itkin düşməsindən və girov götürülməsindən bəhs olunur. Bildirilir ki, beynəlxalq hüququn girov götürməni, kütləvi edamları və zor gücünə yox etməni qəti şəkildə qınamasına baxmayaraq, Ermənistan işğal etdiyi torpaqlarda günahsız insanlara qarşı təcavüzkar siyasət aparıb.




Ermənistan bununla 1949-cu il Cenevrə Konvensiyasının müharibə əsirləri və mülki vətəndaşlar ilə rəftara dair müddəalarını açıq şəkildə pozub. İşgəncələr, insan ləyaqətini alçaltma kimi hallar Ermənistan hərbçiləri tərəfindən sistemli və kollektiv şəkildə həyata keçirilib.




Yazıda vurğulanıb ki, Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının çoxsaylı müraciətlərinə baxmayaraq, Ermənistan itkin düşmüş və ya əsir götürülmüş 4 min azərbaycanlı haqqında məlumat verməkdən imtina edib. Onlar haqqında heç bir məlumat yoxdur. Qısa məlumatlar isə əsirlikdən azad olmuş bir neçə şahidin ifadələri əsasında əldə edilib. Ermənistan isə Azərbaycana qarşı hərbi təcavüzə və 30 ildir bəşəriyyətə qarşı törətdiyi cinayətlərə görə hələ də cəzalandırılmayıb.

Diqqətə çatdırılıb ki, hazırda Azərbaycan Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əməkdaşlıq edərək, itkin düşmüş insanların yaxınlarının DNK nümunələrini toplayaraq itkin düşən insanların qalıqlarını tapacağına ümid edir. Azad edilmiş torpaqlarda kütləvi məzarlıqların aşkarlanacağı və itkinlərin cəsədlərinin tapılacağı gözlənilir. Ancaq bu ərazilərin erməni təcavüzkarları tərəfindən minalanması belə işlərin aparılmasını ləngidir.

Həmçinin qeyd edilib ki, bu, 4 min azərbaycanlı itkinin xatirəsini anmaq, ədaləti bərpa etmək məqsədilə işlərin başlanğıcıdır. Bu cinayətlərə görə beynəlxalq qurumlar Ermənistana qarşı hələ də heç bir sanksiya tətbiq etməyib və itkinlərə görə təzminat ödənilməsi tələb olunmayıb.

## "Arabnews": Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi mənzərə yaradıb

Səudiyyə Ərəbistanının ingilis dilində nəşr edilən nüfuzlu "Arabnews" nəşrində türkiyəli politoloq Sinəm Çengizin rəsmi Ankaranın Cənubi Qafqazda dayanıqlı sülhə və sabitliyə nail olmaq məqsədilə irəli sürdüyü "Altılıq əməkdaşlıq platforması" haqqında geniş məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, 44 günlük müharibədən sonra Azərbaycanın Cənubi Qafqaz regionunda yeni geosiyasi mənzərə yaratdığını diqqətə çatdıran müəllif Rusiya, Türkiyə, İran, Azərbaycan, Gürcüstan və Ermənistanın cəlbini ehtiva edən "altılıq platforması"nın yeni reallıqlara uyğun olduğunu yazıb. O qeyd edib ki, Azərbaycanın Qələbəsinin regionun tarixində yeni səhifə açdığını söyləyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rəsmi Ankaranın bu təklifinin tərəflərin hamısı üçün sərfəli olduğunu bəyan edib. Türkiyə hesab edir ki, Ermənistanın bu prosesə qoşulacağı və müsbət addımlar atacağı təqdirdə ikitərəfli münasibətlərdə də müəyyən irəliləyişlər ola bilər, bu isə müharibədən məğlub çıxmış ölkə üçün faydalıdır.




Müəllif, eyni zamanda, vurğulayır ki, altı ölkənin regional əməkdaşlıq mexanizmi regionda iqtisadi, enerji, nəqliyyat və ticarət əlaqələrini möhkəmləndirə bilər. Bu platformanın reallaşmasında Türkiyə və Rusiyanın sıx əməkdaşlığı da mühüm rol oynayacaq. Digər tərəfdən, İranın yeni siyasi rəhbərliyinin də Cənubi Qafqazda geosiyasi mənzərənin Azərbaycanın xeyrinə dəyişməsi reallığını qəbul etdiyi görünür.

Məqalədə qeyd edilir ki, sözügedən platformanın reallaşmasında bəzi maneələr, ən başlıcası isə Rusiya ilə Gürcüstan arasında gərgin münasibətlər mövcuddur. İkinci maneə isə Ermənistanın Türkiyə və Azərbaycanla bağlı düşmənçilik mövqeyidir. Bu kontekstdə erməni tərəfi birdəfəlik olaraq hər iki qonşusuna ərazi iddialarından əl çəkməli və rəsmi olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıdığını elan etməlidir.

# Azərbaycanın Rus İcması növbəti humanitar tədbirini Gəncədə keçirib

**Azərbaycanın Rus İcması ölkəmizdə daim humanitar tədbirlərin keçirilməsində fəallıq göstərir. İkinci Qarabağ savaşında Azərbaycan Ordusuna maliyyə dəstəyi göstərən bu icma müharibədən sonra da şəhid ailələrinə və qazilərə sosial- humanitar dəstək göstərməkdə davam edir.**

İcma növbəti humanitar tədbirini Gəncə şəhərində təşkil edib. Belə ki, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Azərbaycanın Rus İcmasının və Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin Azərbaycandakı Nümayəndəliyinin təşkilatçılığı ilə "Uşaqların məktəbdə bir araya gəlməsinə kömək et!" adlı tədbir keçirilib.

Gəncə Şəhər İcra Hakimiyyətindən "İki sahil"ə verilən məlumata görə, tədbirdə 2021-2022-ci dərs ilində birinci sinifə gedəcək şagirdlərə məktəb ləvazimatları təqdim olunub. Heydər Əliyev Park-Kompleksinin girişində yerləşən Zəfər tağı memarlıq abidəsinin önündə keçirilən tədbirdə GəncəŞəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü, Azərbaycanın Rus İcmasının sədri Mixail Zabelin, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin rəhbəri İrek Zinnurov, Milli Məclisin deputatı Naqif Həmzəyev və digər rəsmilər iştirak ediblər.





Tədbirdə çıxış edənlər ölkəmizdə hər bir şagirdin Vətənimiz üçün layiqli vətəndaş kimi formalaşmasını şərtləndirən şəffaf və humanitar mühitin olduğunu qeyd ediblər. Eyni zamanda, birinciləri təbrik edərək onlara ilk tədris ilində uğurlar arzulayıblar. Tədbirin əsas təşkilatçısı Mixail Zabelin "İki sahilə"ə bildirib ki, məktəblilərə göstərilən diqqət və qayğı bundan sonra da davam etdiriləcək. Sonra şagirdlərə məktəb ləvazimatları paylanılıb. Tədbir konsert proqramı ilə davam etdirilib.







Qeyd edək ki, Azərbaycanın Rus İcması iki qonşu dövlətin- Azərbaycanla Rusiyanın iqtisadi və siyasi əməkdaşlığının möhkəmlənməsinə dəstək verən bir təşkilatdır. Eyn zamanda, icmanın üzvləri , o cümlədən rus əsilli vətəndaşlarımız Azərbaycanın uğurları və inkişafı üçün həmişə önəmli siyasi və ictimai fəaliyyətləri ilə seçiliblər.

# YAP Xocalı rayon təşkilatının X hesabat konfransı keçirilib

Sentyabrın 6-da Yeni Azərbaycan Partiyası Xocalı rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz bir daha xalqımızın nə qədər məğrur, yenilməz olduğunu nümayiş etdirdi. V.Əliyev qeyd edib ki, YAP Xocalı rayon təşkilatı Yeni Azərbaycan Partiyasının VII Qurultayında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində bütün qüvvə və bacarığını səfərbər edir.





V.Əliyev onu da əlavə edib ki, YAP Xocalı rayon təşkilatının sıralarında 885 üzv birləşir ki, onun da 384 nəfəri qadınlar, 227 nəfəri isə gənclərdir.




Sonra YAP Xocalı rayon təşkilatının Nəzarət Təftiş Qrupunun sədri Əliniyaz Nəcəfovun hesabatı dinlənilib.



Müzakirələr zamanı YAP Xocalı rayon təşkilatının İdarə Heyətinin üzvləri - Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov və Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov, rayon təşkilatının sədr müavini Nəcəf Həsənov, təşkilatın Qadınlar Şurasının sədri Məlahət İsmayılova, rayon təşkilatının dövlət idarəetmə orqanları üzrə ərazi ilk partiya təşkilatının sədri Anar Əliyev təşkilatın hesabat dövrü ərzində gördüyü işlərdən bəhs ediblər.





Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Azərbaycan davamlı inkişafı ilə digər ölkələrə nümunədir: "Ən əsası xalq-iqtidar birliyinin möhkəmliyi, sarsılmazlığı uğurların davamlılığına geniş yol açır. Bu fikir dövlətimizin başçısı cənab İlham Əliyevin çıxışlarında da öz əksini tapır ki, xalqın dəstəyi yeni-yeni təşəbbüslərin irəli sürülməsinə, hər sahə üzrə konkret Dövlət Proqamlarının uğurlu icrasına əsas yaradır. Məhz bu uğurlar yeni-yeni hədəflərin müəyyənləşdirilməsini bir zərurətə çevirir. Tarixi Zəfərimizin yaratdığı yeni reallıqlar ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının qarşısında da yeni-yeni vəzifələr qoyur. Yeni Azərbaycan Partiyasının VII Qurultayında qəbul olunan qərarlar, idarəçilik sistemində təkmilləşmə də bu məqsədə xidmət edir. Xalqın partiyası kimi mövqeyini günbəgün möhkəmləndirən Yeni Azərbaycan Partiyası güclü, mütəşəkkil qüvvədir". Ə.Tağıyev YAP Xocalı rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP Xocalı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.





# Vüqar Rəhimzadə: “Füzuli Beynəlxalq Hava Limanı Qarabağın sülhə açılan hava qapısıdır”

**“Sentyabrın 5-i tarixi ölkəmiz üçün çox əlamətdar gün oldu. Dövlətimizin başçısı İlham Əliyevin Qarabağımızın hava qapısı kimi dəyərləndirdiyi Füzuli Beynəlxalq Hava Limanına dünyanın 2 nəhəng hava gəmisi uğurlu eniş etdi. Azərbaycanın “Airbus A340-500” təyyarəsi və “SilkWay” şirkətinin “Boeing 747-400” təyyarəsi öz texniki uçuşlarını müvəffəqiyyətlə yerinə yetirərək Zəfər tariximizin daha bir möhtəşəm səhifəsinin yazılmasının iştirakçısı oldular.**



İşğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işləri, həmçinin Böyük Qayıdışın reallığa çevrilməsinə xidmət edən bu kimi addımları xalqımızın necə sevinclə, qürur hissi ilə qarşıladığını təsəvvür etmək çətin deyil. 30 ilə yaxın düşmən tapdağı altında olan, hər daşı, qayası dağıdılan, yerlə-yeksan edilən bu torpaqlarımızda həyatın yenidən başlanmasından, onlara yeni, doğma nəfəsin verilməsindən sevincli nə ola bilər? Bildiyimiz kimi, Füzuli Beynəlxalq Hava Limanının təməli dövlət başçısı İlham Əliyevin cari ilin yanvarın 14-də Şuşaya səfəri çərçivəsində qoyulmuşdu. Qarabağın hava qapısı adlandırılan bu müasir tipli beynəlxalq aeroport cəmisi 9 ay müddətinə tamamlanaraq, artıq qonaqlarını qarşılamağa hazırdır”. Bu fikirləri “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, “Qarabağ” adını daşıyan sərnişin təyyarəsinin Füzuli Beynəlxalq Hava Limanına enməsi 30 ilə yaxın müddətdə həsrətlə gözlədiyimiz Böyük Qayıdışın daha bir rəmzi ifadəsi oldu: “Dövlətimizin qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində 30 ilin işğalına son qoyuldu. Tarixi Zəfərimiz 30 illik işğal dövrünün bütün reallıqlarına işıq saldı. Qonşu ölkələrə qarşı əsassız torpaq iddiası ilə çıxış edib bunu havadarlarının dəstəyi ilə həyata keçirən ermənilər tarixi saxtalaşdırmaqla yalanlarını həqiqət kimi sırımağa çalışsalar da, Qələbədən sonra danışan daşlar, qayalar belə bir daha bu reallığı ortaya qoydu ki, ədalət, beynəlxaq hüquq mövcuddur, sadəcə onların tətbiqi üçün aparıcı dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar maraqlarını bir kənara qoyub hadisələrə açıq və obyektiv gözlə baxmalıdırlar. Ermənilər işğal etdikləri ərazilərimizdə 30 ildə bir dənə də olsun quruculuq işi həyata keçirməyiblər. Əksinə mövcud olanları tamamilə dağıdıb, vəhşiliyin onlara xas xislət olduğunu bütün dünyaya nümayiş etdiriblər. Bu gün dünya həqiqətləri görməklə yanaşı, həm də onları etiraf etmək məcburiyyətindədir. Artıq bütün dünya torpağın əsl sahibi olan azərbaycanlıların işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərini necə böyük həvəslə, qürur hissi ilə həyata keçirdiklərinə şahidlik edir. Bu gün əsas hədəf bu torpaqları öz əvvəlki məcrasına gətirmək, cənnət məkana çevirməkdir. Dövlət başçısı İlham Əliyevin əsas çağırışlarından biri də budur ki, Qarabağın tacı, Azərbaycanın döyünən ürəyi olan Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməlidir. Füzuli Beynəlxalq Hava Limanının tikintisində məqsədlərdən biri də mədəniyyət paytaxtımıza gediş-gəlişi yüksək səviyyədə təmin etməkdir. Təbii ki, burada yerli vətəndaşlarla yanaşı, xarici turistlərin səfərləri də nəzərə alınır. Yol infrastrukturunun yüksək səviyyədə qurulması ümumilikdə bu ərazilərin malik olduğu iqtisadi resurslardan səmərəli istifadəni təmin edəcək”.

Baş redaktor onu da bildirib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi və müvafiq tapşırıqları əsasında işğaldan azad edilmiş ərazilərdə zəruri infrastrukturun yaradılması istiqamətində işlər uğurla davam etdirilir: “Ölkə Prezidenti ilə birgə işğaldan azad edilmiş ərazilərimizə səfərlər edən, burada aparılan quruculuq və bərpa işləri ilə yaxından tanış olan, yeni obyektlərin təməlinin qoyulmasında və bərpadan sonra açılışında iştirak edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə keçirilən tədbirlərin Böyük Qayıdışın reallığa çevrilməsində, möhtəşəm Qələbəmizin təqdimatında mühüm əhəmiyyəti vardır. Hazırda dünyaya səs salan “Xarıbülbül” musiqi festivalı, Vaqif Poeziya Günləri ənənələrinin bərpasında Heydər Əliyev Fondunun xidmətləri böyükdür. Bu mühüm tədbirlər işğalçı Ermənistana və ona dəstək verən dövlətlərə ciddi mesajlar olmaqla yanaşı, həm də bərpa və quruculuq işlərinin daha böyük əhval-ruhiyyə, ruh yüksəkliyi ilə davam etdirilməsinə stimuldur”.

Vüqar Rəhimzadə daha sonra qeyd edib ki, Qarabağın dünyaya açılan hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanı ilə yanaşı, Laçın və Zəngilan rayonlarında da beynəlxalq aeroportların tikintisinə başlanılıb: “Bu mühüm addımlar həm sosial-iqtisadi, həm də strateji cəhətdən olduqca önəmlidir. Yaradılan bu infrastruktur qarşıdakı illərdə Azərbaycanın dayanıqlı inkişafına böyük dəstək olacaq. Azərbaycan dövləti bütün bu imkanlardan və üstünlüklərdən istifadə edərək öz qüdrətini daha da artıracaq. Hazırda Füzuli Beynəlxalq Hava Limanının ərazisində yaşıllaşdırma işləri həyata keçirilir. Bir sözlə, bu günlər Füzulidə qaynar həyat yaşanır. Qısa zamanda həyata keçirilən nəhəng quruculuq və bərpa işlərinin miqyasının genişliyi, eyni zamanda, Azərbaycanın iqtisadi və maliyyə imkanlarının təqdimatıdır. Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, bu gün üçün bizim yeganə rəqibimiz zamandır. Çünki bərpa və quruculuq işlərinin uğurla başa çatdırılmasının zamana ehtiyacı var”.

# “YAP bu missiyanı yüksək səviyyədə şərəflə yerinə yetirə bildi”

## YAP Ağdam rayon təşkilatının XI hesabat konfransı keçirilib







**Sentyabrın 6-da Yeni Azərbaycan Partiyası (YAP) Ağdam rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. SİA-nın verdiyi məlumata görə, əvvəlcə müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, bu gün öz sıralarında 760 mindən çox üzvü birləşdirən Yeni Azərbaycan Partiyası ulu öndər Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündən-günə möhkəmləndirməkdədir. Bu gün cənab Prezdent İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni inkişaf mərhələsini yaşayır və Cənubi Qafqaz regionunun ən güclü siyasi təşkilatına çevirilib.



A.Əliyev qeyd edib ki, hazırda YAP Ağdam rayon təşkilatı 66 ərazi ilk partiya təşkilatında 6942 üzvü birləşdirir. Onların 3120 nəfəri qadınlar, 1568 nəfəri isə gənclərdir. Sonra YAP Ağdam rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun üzvü Elməddin Abbasovun hesabat məruzəsi dinlənilib.



Müzakirələr zamanı çıxış edən Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Milli Məclisin deputatı, “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, YAP Ağdam rayon təşkilatı Qadınlar Şurasının sədri Mətanət Misirxanova, rayon təşkilatı Gənclər Birliyinin sədri Rauf Bəxtiyarlı, rayon təşkilatı Rayon Mərkəzi Xəstəxanası ərazi ilk partiya təşkilatının sədri Bəhram Qurbanov hesabat dövründə görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli, ölkəmizin ciddi sınaqlarla üz-üzə qaldığı bir dövrdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılıb. 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra digər sahələrdə olduğu kimi YAP-ın inkişafında da yeni mərhələ başladı. Həmin dövrdə YAP-ın qarşısında bir tərəfdən iqtidar partiyası kimi cəmiyyətin siyasi sistemində özünün aparıcı mövqeyini təsdiq etmək, digər tərəfdən isə müstəqil dövlət quruculuğu proseslərində yaxından iştirak etmək vəzifəsi dayanırdı və YAP bu missiyanı yüksək səviyyədə şərəflə yerinə yetirə bildi. Ona görə də Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı böyük xidmətləri bu nəhəng təşkilatın cəmiyyətdəki mövqelərini get-gedə daha da möhkəmləndirir, insanların bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir.





Ə.Tağıyev vurğulayıb ki, bu gün Azərbaycan tarixinin ən güclü, ən qüdrətli dövrünü yaşayır. 44 günlük Vətən müharibəsindən alnıaçıq çıxan Azərbaycan dövləti 30 illik işğala son qoyaraq bölgədə və dünyada yeni reallıqlar yaradıb. İndi isə bu yeni reallıqlara uyğun qarşımızda yeni çağırışlar, vəzifələr durur.



Ə.Tağıyev YAP Ağdam rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP Ağdam rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.



# Azərbaycanda hakimiyyətə iddialı olan üzdəniraq "siyasətçi"



**Rauf Əliyev, Milli Məclisin deputatı**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən zərgər dəqiqliyi ilə müəyyənləşdirilən və həyata keçirilən balanslaşdırılmış daxili və xarici siyasət strategiyasının nəticəsində Azərbaycan dünyanın hərtərəfli sürətlə inkişaf edən, yüksək beynəlxalq nüfuza malik olan ölkələrindən birinə çevrilmişdir. Ən mühüm olan odur ki, xalqımız uzun illər arzu etdiyi ən böyük məqsədinə nail oldu. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusu tərəfindən 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımız işğaldan azad olunub. Azərbaycanın Müzəffər Ordusu şanlı tarix yazdı. Bütün dünya Azərbaycanı qalib ölkə kimi tanıyır.

Prezident İlham Əliyevin müəyyənləşdirdiyi və həyata keçirilən hərtərəfli düşünülmüş daxili və xarici siyasət Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmlətdi. Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Azərbaycan tarixində heç vaxt bu qədər güclü olmamışdır.

Dünyada baş verən qlobal iqtisadi-maliyyə böhranlarına, hal-hazırda davam edən COVİD-19 koronavirus pandemiyasına baxmayaraq, Azərbaycanda əldə olunan uğurlar dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən qeydə alınmışdır. Dünya Bankının "Doinq Business" hesabatında reytinqə görə Azərbaycan 190 ölkə arasında 28-ci yerdədir. Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatının bəzi parametrlərinə görə Azərbaycan 74 inkişaf etmiş ölkə arasında öncül sıralardadır. Əhalinin elektrik təchizatı səviyyəsinə görə dünya miqyasında Azərbaycan ikinci yerdədir. Hökumətin dəyişməyə cavabdehliyi, yeni islahatçı obrazı əmsalına görə Azərbaycan dünya miqyasında beşinci yerdədir. Azərbaycan Hökumətinin uzunmüddətli strategiyası üzrə 10-cu yerdə, hökumətin siyasi sabitliyi təmin etməsi üzrə 11-ci yerdədir. İnfrastruktur layihələri ilə bağlı göstəricilər də yüksəkdir. Azərbaycan dəmir yolu xidmətlərinin səmərəliliyi üzrə 12-ci yerdə, avtomobil yollarının keyfiyyəti üzrə dünya üzrə 24-27-ci yerdədir. İnklüziv inkişaf indeksi üzrə Azərbaycan üçüncü yerdədir.

Əlbəttə, Azərbaycanı istəməyən xarici qüvvələr və onların dəyirmanlarına su tökən, daxilimizdəki antimilli qüvvələr Azərbaycanın əldə etdiyi bu uğurları qəbul edə bilmirlər, bununla heç cürə barışa bilmirlər. Artıq onların gücü ancaq izləyicilərini yalan və böhtanlarla dolu, təstiqini tapmayan məlumatlarla manipulyasiya etməyə çatır.

Son zamanlar sosial şəbəkələrdən siyasi kapital toplamaq məqsədi ilə istifadə edən, Azərbaycanda hakimiyyətə iddialı olan üzdəniraq "siyasətçilər" heç bir reallıqlara əsaslanmayan, yalan, böhtan xarakterli məlumatlarla manupulyasiya edərək özlərini təbliğlə məşğuldurlar. Bu şəxslərdən biri 1989-1991-ci illərdə AXCP-nın üzvü, Azərbaycan Milli İstiqlal Partiyasının sabiq sədri, 2006-cı ildən isə Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyevdir. Keçdiyi həyat yolu deməyə əsas verir ki, bu şəxs sabit əqidəyə malik olmayıb. Bu günə qədər bir neçə siyasi partiyanın ideologiyasının təbliğatçısı gələcəkdə yeni siyasi hərəkatların iştirakçısına çevrilə bilər. Belə, tez-tez siyasi əqidəsini dəyişdirən bu şəxs və onunla eyni cəbhədə olan ağa qara deməyi bacaran üzdəniraq "siyasətçilər" sosial şəbəkələrdən, bəzi internet televiziya kanallarından istifadə edərək izləyicilərinə heç bir reallığa əsaslanmayan, yalan və böhtanlarla dolu məlumatlar çatdırırlar.

Müstəqillik dövründə, 2003-cü ilə kimi Ulu Öndər Heydər Əliyevin, 2003-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi misilsiz uğurları görməzdən gələn, bu uğurları həzm edə bilməyən bu üzdəniraq "siyasətçilər", hakimiyyət hərisləri başa düşmürlər ki, artıq onların zamanı çoxdan keçib. Azərbaycan xalqı kimin-kim olduğunu çox yaxşı başa düşüb. Azərbaycan tarixində heç vaxt olmayan xalq-iqtidar həmrəyliyi yaranıb.

Əldə olunmuş uğurlar deməyə əsas verir ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən hərtərəfli düşünülmüş siyasi və iqtisadi islahatlar, beynəlxalq əməkdaşlıq sahəsində əldə olunan yüksək nəticələr imkan verəcək ki, 44 gün davam edən Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması ilə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan uğurlu inkişafını davam etdirəcək və yeni-yeni uğurlara imza atacaq.

# Sorosun USAİD yolu ilə Azərbaycanda yaratdığı agenturası haqqında kitab

**(?!) ŞOK+FAKT**




"İnqilablar mühəndisi" kimi adlandırılan, lakin insanların tökülən qanları, dövlət çevrilişəri, tənəzzüllərə uğratmalar vasitəsi ilə milyardlar qazanan "Açıq Cəmiyyət İnstitutu"nun başçısı, öz adını daşıyan fondun təsisçisi Corc Soros barədə növbəti maraqlı fakt üzə çıxıb. SİA-ya etibarlı mənbələrdən daxil olan məlumata görə, Azərbaycan xalqının və dövlətinin bir nömrəli düşməni olan, uzun müddət Bakıdakı fondunu məhz həmin məqsədlərlə işlətmiş, ifşa olunduqdan sonra isə qovulmuş Corc Sorosla bağlı kitab işıq üzü görüb və həmin kitab ABŞ-da yaxın zamanlarda tanınmış jurnalist Mət Palumbonun (Matt Palumbo) yeni jurnalist araşdırması kimi ictimaiyyətin diqqətinə çatdırır.

Kitabda Sorosun təsir agentlərindən tutmuş digər bir sıra ifşaları haqqında bəlkə də heç yerdə yazılmayan faktların da üzə çıxacağı ehtimal olunmaqdadır.

### Kimlərin adları keçir?

Qeyd olunan kitabda digər məsələlərlə yanaşı, Sorosun Azərbaycandakı şəbəkəsi haqqında ətraflı məlumat verilib. Hətta ilkin məlumatlara görə, nəşrdə bəzi eks-deputatların, məmurların, jurnalistlərin və vətəndaş cəmiyyəti nümayəndələrinin, QHT rəhbərlərinin də adları da yer tapıb.

Lakin maraqlı məqamardan biri də Sorosun tabeliyində olan USAİD-in dəstəyi ilə Azərbaycanda fəaliyyət göstərən və hələ 1988-ci ildə təsis etdiyi "Şərq-Qərb İdarəetmə İnstitutu" adlı təşkilatlarının fəaliyyəti haqqında da xüsusi yerlər ayrılıb. Ümumiyyətlə, USAİD-in bu gün də Azərbaycandakı şəbəkələrinin fəaliyyət göstərmələri barədə məlumatlar var və SİA olaraq çoxsaylı faktları ictimai rəyin diqqətinə çatdırmışıq. O cümlədən, bu qurumun separatçı "DQR"də, həmçinin Ermənistandakı fəaliyyətləri barədə də necə deyərlər, "N" qədər məluatlar mövcuddur. Belə olan halda, sözügedən kitabın həqiqətən də rezonans doğuracağını bəri başdan ehtimal etmək mümkündür.

Kitabı aşağıdakı linklərdən sifariş etmək olar:

https://www.amazon.com/Matt-Palumbo/e/B-00DXY5YMO%3Fref=dbs_a_mng_rwt_scns_share
https://posthillpress.com/book/man-behind-the-curtain-inside-the-secret-network-of-george-soros

Göründüyü kimi, biz yaxın zamanlarda çox maraqlı ifşaların şahidi olacağıq.

# Erməni cərrahın etirafları: Hər gün saysız-hesabsız yaralı görürdüm



**İkinci Qarabağ müharibəsinin başa çatmasından 10 ay keçsə də, ağır məğlubiyyətlə üzləşən Ermənistan hələ də böhrandan çıxa bilmir. Müharibə dövründə dezinformasiya maşınını işə salan rəsmi İrəvan sonradan nəinki işğalda saxladıqları torpaqlardan qaçdıqlarını, ağır itkilərlə üzləşmələrini belə gizlədə bilmədi. Bu gün də erməni cəmiyyəti sayı-hesabı bilinməyən itki, ordunun döyüşlər zamanı darmadağın olması ilə bağlı yeni məlumatlarla qarşılaşır.**

Məsələn, erməni reanimatoloq Hovsep Ovannisyan yerli mediaya verdiyi müsahibədə müharibə ilə bağlı acı xatirələrini paylaşarkən döyüşlərin onlar üçün dəhşətli mənzərələr yaratdığını deyib.

"İki sahil" yaralıların sayını hesablamağa belə vaxtı olmadığını deyən erməni cərrahın xatirələrindən maraqlı məqamları təqdim edir:

"Hər gün bizim üçün çətin idi. Hər gün sonsuz sayda yaralı görürdüm. Onları saymağa belə vaxt yox idi. Heç bunu etmək mümkün də deyildi. Həddindən artıq yüklənir və çox çalışırdıq. Hər kəsin həyatı üçün mübarizə apardıq. Xeyli simaları, bir çox hekayələri xatırlayıram. Xəstələrimin adlarını yazmışdım ki, müharibədən sonra onların necə olduqlarını öyrənim, axtarıb tapım. Bir xəstəm sonradan ölmüşdü".

Məqalədə qeyd edilir ki, kapitulyasiya aktının bağlanmasından 10 ay sonra müharibə cəhənnəmindən keçən həkim hələ də İrəvandakı Yerablur hərbi panteonunu ziyarət etməyə hazır deyil. Çünki cərrah qəbir daşlarına, xilas edə bilmədiyi və ya xəstəxanaya çox gec çatdırılan çoxsaylı əsgərlərin şəkillərinə baxa bilmir.

Hovsep jurnalistə həmin günlərdə gördüklərinin hamısını təfərrüatı ilə danışmaq istəməyib. O hazırlıqsız bir insanın ağ xalatlıların gördüklərini təsəvvür etməsini, dinləməsinin çətin məsələ olduğunu söyləyib.

Həkim ordumuzun döyüşlərdə məhv etdiyi yüzlərlə erməni əsgəri arasından təsadüfən sağ qalan əsgərlə bağlı xatirəsini isə möcüzə adlandırıb.

"Yalnız təsadüfən şahidi olduğum bir epizoddan bəhs edim: əsgərlərdən biri qardaşının artıq öldüyünü anlamayaraq onaqana bulaşmış çörək yedirtməyə çalışırdı. Əlbəttə ki, möcüzələr də baş verirdi. Müharibənin dayandığı elan edildikdən sonra səhər saatlarında hər kəs məyus olmuşdu. Birdən bir yaralı gətirdilər. Onu meyitlərin arasından tapmışdılar və artıq öldüyünü zənn edirdilər. Uzun müddət tibbi yardımsız qalan əsgərin xilası inanılmaz bir şey idi" - Ovanisyan deyib.

# Fransalı məşhur aktyor Jan-Pol Belmondo vəfat edib

**Buqələmun aktyor, Fransa kinosunun müqəddəslərindən olan Jan-Pol Belmondo sentyabrın 6-da 88 yaşında vəfat edib. AZƏRTAC xəbər verir ki, "Bebel" ləqəbli Belmondo 1933-cü il aprelin 9-da Nöyi-sür-Sen (Neuilly-sur-Seine) şəhərində anadan olub. Atası heykəltəraş, anası isə rəssam olub.**



Belmondo 64 illik karyerasında 88-dən çox filmdə çəkilib. Gənc aktyor təhsillə demək olar ki, maraqlanmayıb, ancaq idmanı çox sevib, futbol, velosiped, xüsusilə də boksla məşğul olub. Məhz buna görə bu gün onu Fransa boksunun ən gözəl səfiri adlandırırlar.

Jan-Pol Belmondo 1946-cı ildə Bebel "Comedie-Francaise" teatrında Molyerin "Alim qadınlar" tamaşasına qatılır. Beləliklə, onun əsil aktyorluq hissləri yaranmağa başlayır. Sonra Belmondo Paris xəstəxanalarında pasiyentlər qarşısında çıxış edir. 1952-ci ildə Milli Dram Sənəti Konservatoriyasına qəbul olur. Karyerası müddətində o, həm müəllif filmlərində, həm də məşhur bədii filmlərdə rol alıb.

## BAŞ REDAKTORLARDAN SƏRT REAKSİYA

# “Reket” jurnalistlər mətbuatın üz qarasıdır”



**“Reket jurnalistikaya qarşı mübarizə bir gün belə səngiməməlidir. Çünki adından da göründüyü kimi, onların fəaliyyəti təhdid, şantaj, hədə-qorxu üzərində qurulub. Bu isə kriminal əməldir, insan hüquq və azadlıqlarının pozulmasına yönəlib. Buna görə də “reket” jurnalistlərlə mübarizə aparmaq cəmiyyətin bütün təbəqələrinin, rəsmi qurumların, ən başlıcası isə hüquq mühafizə orqanlarının vəzifəsidir”. Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə deyib.**

Onun sözlərinə görə, “reket” jurnalistlər mətbuatın üz qarasıdır. Onların mövcudluğu vicdanlı qələm adamları üçün mənəvi zərbədir: “Təbii ki, onların sıradan çıxmasında hamıdan çox, biz maraqlı olmalıyıq. Həmişə o fikirdə olmuşam ki, “reket” jurnalistikasının “çiçəklənməsi” birbaşa məmurların adı ilə bağlıdır. Azərbaycanda “reket” jurnalistləri məmurlar “himayə” edir. Əgər məmurlar rüşvət və korrupsiya bataqlığında boğulmasalar, “reket” jurnalistlər bu qədər əl-qol aça bilməzlər”.



Mərkəz sədri bildirib ki, “reket” jurnalistlərin əl-qolunu bağlamaq, yaranmış münbit şəraitdən istifadə etmələrinə mane olmaq lazımdır: “Bu adamların həbsinin söz və mətbuat azadlığına heç bir dəxli yoxdur. Onlar kriminal ünsürlər olduğu üçün əməlləri qanunvericiliyə uyğun qaydada qiymətləndirilməlidir. Lazım gələrsə, qanunvericilik bazası zənginləşdirilməli, qətiyyətli tədbirlərin görülməsi üçün gərəkən hüquqi baza yaradılmalıdır. Açıq və şəffaf cəmiyyət quruculuğu müstəqil mətbuatdan, effektiv ictimai nəzarət mexanizminin yaradılmasından keçir. Burada “reket” jurnalistlərin iştirakı nəzərdə tutulmur. Əksinə, həmin şəxslərin fəaliyyəti bu prosesə kölgə salır. Açıq cəmiyyət quruculuğunda əməlləri qaranlıq olan adamlara yer yoxdur”.

**Mövzu ilə əlaqədar olaraq “7news.az” xəbər portalının baş redaktoru Səbuhi Abbasov fikirlərini bölüşüb:** “Son günlər “reket” jurnalistlərlə bağlı problemlər çoxalıb. Düşünürəm ki, Azərbaycanda son 1 ildə bu istiqamətdə ciddi işlər görülür. Ümumiyyətlə “reket” jurnalistika anlayışı yoxdur. Jurnalistika ilə “reket” sözünü yan-yana qoymaq elə düşünürəm ki, düzgün deyil. Biri var jurnalist, biri də var jurnalist adından istifadə edən bir qrup mütəşəkkil dəstə”.



Onun sözlərinə görə, dünyanın hər yerində bu problemlər var: “Ancaq bizdə bu problemlər biraz fərqlidir. Jurnalist olmayan mütəşəkkil cinayətkar dəstələrin sayı hər ötən il artır. Ölkədə bu və ya digər formada fəaliyyət göstərən 3 minə yaxın qəzet və 7 minə yaxın onlayn sayt fəaliyyət göstərir. Düşünürəm ki, ilk növbədə biz “reket” sözünü jurnalistika sözü ilə yan-yana işlətməkdən çəkinməliyik. Bildiyimiz kimi KİVDF dəyişdirildi və Medianın İnkişafı Agentliyi yaradıldı. Medianın İnkişafı Agentliyinin son bir ildə təşkil etdiyi istər müsabiqələr olsun, istər beynəlxalq təlimlər olsun bütün bunlar Azərbaycanda sağlam jurnalistikanın formalaşdırılmasını şərtləndirir. Təəssüflər olsun ki, son 15 ildə bəzi hüquq-mühafizə orqanları bu prosesə çox soyuq yanaşırdılar. Son 1 ildə isə artıq bu məsələyə çox ciddi yanaşılır.

Reketliklə, cinayətkarlıqla müəyyən maddi qazanc əldə etmək üçün göstərilən fəaliyyətlərə artıq göz yumulmur. Ümumiyyətlə bu istiqamətdə mübarizə kompleks şəklində həyata keçirilməlidir. Təkcə Medianın İnkişaf Agentliyi bu prosesdə iştirak etməməlidir, yəni bütövlükdə cəmiyyət olaraq mübarizə aparmalıyıq. Azərbaycanda jurnalistika adı ilə fəaliyyət göstərən qruplaşmış cinayətkar dəstələr birmənalı şəkildə regionlardan qidalanırlar. Ümumilikdə birmənalı şəkildə elan vermək lazımdır ki, əgər, hansısa bir şəxs media adından istifadə edib hansısa məmuru və yaxud da tanınmış şəxsi şantaj edirsə, həmin şəxslə bağlı hüquq-mühafizə orqanlarına məlumat verilməlidir. Düşünürəm ki, Azərbaycanda jurnalistika adından istifadə edib, mütəşəkkil cinayətkar dəstə halına düşən şəxs və ya şəxslərlə bağlı mübarizə kompleks şəklində aparılmalıdır”.

**Mövzu ilə bağlı “Editor.az” saytının baş redaktoru Fərid Şahbazlı fikir bildirib:** “Biz əslində hər şeydən əvvəl “reket” media anlayışı ilə tənqidçi media anlayışı arasında çox incə bir sərhəd var. Bəzən müxtəlif məmurlar, müxtəlif qurumlar, onların neqativ fəaliyyətini tənqid edən həqiqətləri aşkara çıxarmaq istəyən ictimai nəzarət funksiyasını həyata keçirən jurnalistlərin, media nümayəndələrinin “reket” jurnalist damğası vurmaqla qaralamağa çalışırlar. Ölkəmizdə reket jurnalistlərin olması reallığı da var. Şübhəsiz ki, onlarla bağlı zaman-zaman həm mətbuat şurasının müstəvisində, həm hüquq-mühafizə orqanlarının müstəvisində çoxsaylı cəza tədbirləri, addımlar atılıb və bu gün də bu mübarizə davam edir. Hesab edirəm ki, “reket” jurnalistika ilə mübarizə təkcə dövlətin, hüquq-mühafizə orqanlarının deyil, eyni zamanda cəmiyyətin də qarşısında duran əssas vəzifələrdən biri olmalıdır. Bu gün təəssüflər olsun ki, hüquq-mühafizə orqanlarının “reket” kimi həbs etdiyi şəxslər zamanında ayrı-ayrı dövlət qurumları, ayrı-ayrı dövlət strukturları ilə yaxından əməkdaşlıq edib. Bəzi hallarda isə onların arxasında ayrı-ayrı dövlət qurumları və ya vəzifəli şəxslər dayanıblar. Əgər, bu gün cəmiyyət “reket” mətbuatda yazılan yazılara reaksiya verməzsə, müvafiq dövlət qurumları orada əksini tapan yazılara diqqət ayırmazsa, həmin mətbuat orqanlarının özləri təbii proses nəticəsində sıradan çıxacaqlar. Çox təəssüf ki, bəzi hallarda ciddi medianın yazdıqlarına reaksiya verməyən dövlət qurumları və strukturlar reket mətbuatda əksini tapan, həqiqətdən uzaq, qərəzli məlumatlara diqqətlə yanaşırlar. Yalnız inzibati üsullarla, hansısa bir cəza tədbiri görməklə bu problemi həll etmək olmaz. Düşünürəm ki, həm jurnalist təşkilatları, həm cəmiyyət, həm də dövlət qurumları birgə həmrəylik nümyiş etdirməklə reket jurnalistikaya qarşı mübarizə tədbirlərini daha güclü şəkildə apara bilər”.



***Arzu Qurbanzadə***

# Azərbaycanın 25 illik paralimpiya tarixində yeni səhifə

Azərbaycan “Tokio-2020” Yay Paralimpiya Oyunlarında iştirakını uğurla başa vurdu. XVI Yay Paralimpiya Oyunlarında idmanın 22 növü üzrə 529 dəst medal uğrunda yarışlar keçirildi və yarışlarda Azərbaycan möhtəşəm uğurlara imza atmış oldu. Belə ki, Azərbaycan millisi yarışlarda 14 qızıl, 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə 19 medal qazanmış oldu. Bu, Azərbaycanın idman tarixində yeni hadisəyə çevrildi. Paralimpiya yığmamız medalların ümumi sayına görə iştirakçı ölkələr arasında 20-ci, Avropa ölkələri arasında 6-cı, müsəlman ölkələri sırasında 1-ci, MDB ölkələri arasında isə 3-cü yerdə qərarlaşıb. Dörd idmançımız isə “Tokio-2020”də rekordlara imza atıb. Atletika idman növü üzrə idmançımız Həmid Heydəri (F57) nizəatma növü üzrə 51,42 metr nəticə göstərərək dünya rekordunu yeniləyib. Elvin Astanov ( F53 - nüvəitələmə) növü üzrə 8,77 metr nəticə göstərərək yeni dünya rekordu müəyyənləşdirib. Üzgüçülük yarışında Vəli İsrafilov, atletika idman növü üzrə isə Lamiyə Vəliyeva göstəriciləri ilə Paralimpiya rekorduna imza atıblar. Əlbəttə ki, bu Azərbaycan idmanının, paralimpiyaçılarımzın gücünün göstəricisidir. Azərbaycanın 25 illik paralimpiya tarixində bu, ən uğurlu Paralimpiya Oyunları kimi tarixiləşdi.

### Dövlət başçısının sərəncamları ilə paralimpiya komandasının üzvləri təltif olunublar

### ÖLKƏDƏ PARALİMPİYA HƏRƏKATI SÜRƏTLİ İNKİŞAF YOLUNDA

Qeyd edək ki, dünyada Paralimpiya Hərəkatının tarixi Böyük Britaniyanın Elsberri şəhərindəki Stok Mandevil xəstəxanasının neyrocərrahı Lüdviq Qoutmanın təşəbbüsü ilə 1948-ci ildə Londonda, Olimpiya Oyunlarınının açılış mərasimi zamanı ilk dəfə kolyaskalı əlillər arasında Böyük Britaniyanın 1-ci milli yarışlarının keçirilməsi ilə hesablanır.

Azərbaycanda Paralimpiya hərəkatının yaranma tarixi isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1996-cı ilin fevral ayının 9-u ölkəmizin idman salnaməsinə Azərbaycan Respublikası Milli Paralimpiya Komiitəsinin yaranma tarixi kimi daxil olmuşdur. İlk dəfə olaraq Azərbaycan Milli Paralimpiya Komitəsi 1996-cı ildə Atlantada keçirilən X Yay Paralimpiya Oyunlarında cəmi iki idman növü üzrə iki idmançı ilə iştirak etmişlər. Ümummilli Lider Heydər Əliyev paralimpiyaçılarımız üçün Sumqayıt şəhərində yeni, beynəlxalq standartlara cavab verəcək Paralimpiya İdman Kompleksinin tikilməsi haqqında tapşırıq verməsi ölkəmizin idman həyatında böyük müsbət dəyişikliklər və qələbələrə təkan vermiş oldu. Həmin dövrdən ölkədə paralimpiya hərəkatı daha sürətli inkişaf yoluna qədəm qoydu. Xüsusi qeyd etmək lazımdır ki, MDB məkanında ilk dəfə olaraq, Paralimpiyaçılar üçün belə bir kompleks çox yüksək səviyyədə, beynəlxalq standartlara uyğun şəkildə tikilib istifadəyə verilmişdir.



### PARALİMPİYAÇILARA DİQQƏT VƏ QAYĞI DAVAMLIDIR

Ulu Öndər Heydər Əliyevin siyasətinin layiqli davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin ayırdığı diqqəti paralimpiyaçılarımız hər zaman öz üzərlərində hiss ediblər. Müntəzəm olaraq, qələbə qazanmış idmançılarımız, onların məşqçiləri Prezidentin sərəncamları ilə orden və medallarla təltif olunmuşlar. Həyata keçirilən tədbirlərin, ayrılan diqqətin davamı olaraq sentyabrın 6-da “Azərbaycan Milli Paralimpiya Komitəsinin rəhbərliyinin təltif edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan Milli Paralimpiya Komitəsinin rəhbər şəxsləri Rəhimov İlqar Elxan “Şöhrət” ordeni ilə, Məmmədov Kamal Cabir oğlu isə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunublar. Dövlət başçısının “Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında” Sərəncamı ilə XVI Tokio Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə bir qism Azərbaycan idmançıları və onların məşqçiləri “Şöhrət” ordeni, 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, 3-cü dərəcəli “Əmək” ordeni, “Tərəqqi” medalı ilə təltif olunublar.

Bütün bunlarla yanaşı, dövlət başçısı “Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında” da Sərəncam imzalayıb. Paralimpiya Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının əlilliyi olan idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə mükafatlar müəyyən edilib. Belə ki, birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min), onun məşqçisinə 100 000 (yüz min) manat, ikinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min), onun məşqçisinə 50 000 (əlli min) manat, üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min), onun məşqçisinə 25 000 (iyirmi beş min) manat müəyyən edilib.

Bu gün ölkəmizdə paralimpiyaçıların sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Paralimpiyaçılarımızın maddi rifahı yaxşılaşdırılır, onlar mənzillər, minik avtomobilləri ilə təmin olunurlar. Görülmüş məqsədyönlü işlərinin nəticəsi olaraq, paralimpiyaçılarımız yeni-yeni nailiyyətlərə imza atırlar.

***Zümrüd BAYRAMOVA***

# Zəfərimizin Qalib Lideri Qarabağ bölgəsinin yüksəlişini də təmin edəcək!

**“Biz müntəzəm olaraq Azərbaycan ictimaiyyətini gedən işlərlə bağlı məlumatlandırırıq. Görülən bütün işlər xalq tərəfindən bəyənilir, dəstəklənir. Əlbəttə, o bölgələrdən olan insanlar - keçmiş köçkünlər bu layihələrin icrasında iştirak edirlər, onların rəyi mütləq nəzərə alınır. Müharibədən cəmi 8 ay keçib, amma görün nə qədər böyük işlər görülür”. Bu barədə Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsi zamanı “İşğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işləri aparılır. Bu istiqamətdə hansı yeniliklər barədə danışmaq olar?” sualını cavablandırarkən bildirib.**





“Biz, əlbəttə, ilk növbədə, mina təmizləmə işləri ilə məşğul olmalıydıq və məşğul oluruq”, - deyən dövlətimizin başçısı qeyd edib ki, bu, həm çox vaxt, həm də böyük vəsait aparır. Əfsuslar olsun ki, müharibədən sonra 150-yə yaxın Azərbaycan vətəndaşı minalara düşərək ya həlak olub, ya da öz sağlamlığını itirib.

Mina xəritələrinin Azərbaycana verilməməsinin və bunun hansısa şərtlərlə verilməsinin Ermənistan tərəfindən göstərilən növbəti əxlaqsızlıq, mənəviyyatsızlıq, vicdansızlıq olduğunu vurğulayan Prezident İlham Əliyev deyib ki, bu, normal insani davranışa zidd olan yanaşmadır: “Bu, bir daha Ermənistan rəhbərliyinin bizə qarşı olan nifrətinin, düşmənçiliyin təzahürüdür. Çünki mina xəritələrini verməməsinin heç bir əsası yoxdur. Müharibə qurtarıb, biz qalib gəlmişik. Ermənistan məğlub olub, bu məğlubiyyətlə barışıb, barışmalı olub, məcbur etdik. İndi mina xəritələrini verməməsi nə məqsəd güdür? Daha çox azərbaycanlılar həlak olsun, daha çox insanlar əlil olsunlar. Bu, düşmənçilik deyil, nədir? Bu, bir daha onların xislətini göstərir”.

## Azad olunmuş ərazilərdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanacaq

Bu gün Azərbaycan xalqı olaraq torpaqlarımızın işğaldan azad olunmasının sevincini və qürururunu hər gün, hər an yaşayırıq. Ali Baş Komandan İlham Əliyevin “Dəmir yumruğu” cəmi 44 gün müddətində Ermənistana elə bir zərbə vurdu ki, tarixboyu işğalçılar bunu unuda bilməyəcəklər. Bunun nəticəsində işğalçı Ermənistan məğlubiyyətini etiraf edərək kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı.











Artıq bu gün qarşıda dayanan əsas vəzifəmiz azad olunmuş ərazilərimizdə quruculuq-bərpa işlərinin həyata keçirilməsidir. Azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməlləri atılır. Məqsəd yalnız ölkə səviyyəsində deyil, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir. 30 ilə yaxın erməni vandalizminə məruz qalan torpaqlarımızda tezliklə canlanmanın və məskunlaşmanın şahidi olacağıq.

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə hər səfərləri zamanı vacib layihələrə start verilməsi və əhəmiyyətli layihələrin reallaşması işğaldan azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməllərinin qoyulması ilə yanaşı, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir.

## Böyük Qayıdış çoxdan başlayıb

Bəli, Qarabağın dirçəlişi və işğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdış isə çoxdan başlayıb. Belə ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasının təməli hələ bir neçə il əvvəl Cəbrayılın Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə qoyulub. Hələ o zaman bu kiçik kəndin timsalında xalqımız gördü ki, Prezident İlham Əliyev tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək və həm də onları yenidən dirçəldəcək. Hər birimiz hələ o zaman İlham Əliyevin qələbə və quruculuq əzminin, qətiyyətinin şahidi olmuşduq.

İndi isə bütün azad olunmuş şəhər və rayonlar dirçəliş yolundadır. Hələ müharibənin davam etdiyi günlərdən İlham Əliyevin göstəriş və tapşırıqları ilə azad olunmuş ərazilərdə kommunikasiyaların bərpasına başlanılıb. 2020-ci ilin yekunlarına həsr olunmuş və videoformatda keçirilən müşavirədə yekun nitqini bu mövzu ilə tamamlayan Prezident İlham Əliyev Qarabağ bölgəsində cənnət yaradılacağını bəyan etdi: “Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam”.

İşğaldan azad olunmuş ərazilərdə şəhər və kəndlərin bərpası və yenidən qurulması, elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal, digər zəruri infrastrukturların, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və digər məqsədlərlə 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait ayrılıb. 44 günlük qələbəmizdən 8 aya yaxın vaxt keçməsinə baxmayaraq az müddətdə çox işlər görülüb. Prezident İlham Əliyev Azərbaycanın qərb bölgəsinə - Daşkəsən, Naftalan və Goranboya səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işləri və bu istiqamətdə yeniliklər barədə məlumat verərək bildirib ki, biz müntəzəm olaraq Azərbaycan ictimaiyyətini gedən işlərlə bağlı məlumatlandırırıq: “Belə ki, hazırda işğaldan azad olunmuş ərazilərdə kommunikasiyaların bərpası istiqamətində çoxsaylı layihələr icra olunur. Yollar çəkilir, enerji ilə təminat məsələləri yoluna qoyulur. Görülən bütün işlər xalq tərəfindən bəyənilir, dəstəklənir. Əlbəttə, o bölgələrdən olan insanlar - keçmiş köçkünlər bu layihələrin icrasında iştirak edirlər, onların rəyi mütləq nəzərə alınır. Müharibədən cəmi 8 ay keçib, amma görün nə qədər böyük işlər görülür”.

Prezident İlham Əliyev, həmçinin infrastruktur layihələri ilə də bağlı məlumat verərək bildirib ki, üç

# Zəfərimizin Qalib Lideri Qarabağ bölgəsinin yüksəlişini də təmin edəcək!

aeroport tikilir: "Bu, təkcə əsas infrastruktur layihələridir. Şəhərsalma ilə bağlı bizim işçilərimiz böyük işlər görür, çox fəal işləyirlər. Ağdamın baş planı təsdiqləndi. Füzulinin, Cəbrayılın baş planlarının ilkin versiyası mənə təqdim edildi. İndi müfəssəl plan üzərində iş aparılır. Yaxın aylarda Füzuli və Cəbrayıl şəhərlərinin baş planı ictimaiyyətə təqdim ediləcək. Zəngilan şəhərinin baş planının hazırlanması prosesinə artıq başlanmışdır. Bir neçə xarici şirkət, tanınmış dünya səviyyəli şirkət öz təklifini verdi. İndi seçim aparılır. Eyni zamanda, əlbəttə ki, Qubadlı da, Laçın və Kəlbəcər də - o şəhərlər də yenidən qurulacaq. Yəni, bu boyda miqyaslı işi cəmi 8 ay ərzində görmək doğrudan da, mən hesab edirəm ki, böyük qəhrəmanlıqdır".

### "Zəfər yoluna, demək olar ki, sentyabr ayında asfalt döşənməsi də başa çatacaq"

Dövlət başçısı, həmçinin işğaldan azad olunmuş ərazilərimizdə, ümumiyyətlə ölkəmizdə yol infrastrukturunun vacib olduğunu deyərək bildirib ki, enerji sahəsindən başqa ikinci vacib sahə yol infrastrukturudur: "Burada da 8 ay ərzində görün nə qədər böyük işlər görülüb. Bərdə-Ağdam avtomobil yolu tikilir, Zəfər yoluna, demək olar ki, sentyabr ayında asfalt döşənməsi də başa çatacaq. Zəfər yolu olmayıb heç vaxt. Dərədən, dağlardan, meşələrdən keçən o yol gərək açılaydı, torpaq yol çəkiləydi, ondan sonra asfalt yol. Cəmi 8-9 ayda biz bunu edirik. Paralel olaraq Füzuli-Şuşa magistral yolu, Horadiz-Ağbənd yolu çəkilir, 4-6 zolaqlı yoldur. Zəngilan-Qubadlı-Laçın yolu çəkilir. Bu da çox önəmli yoldur. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları - bütün yollar üzrə qızğın iş gedir. Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yol çəkilir. Bu yol heç vaxt olmayıb, cığır olub. Qış aylarında heç vaxt ondan istifadə olunmayıb. Biz indi yol çəkirik, tunellər çəkirik ki, ilin bütün mövsümlərində o yoldan istifadə edə bilək. Eyni zamanda, biz Göygölü də turizm mərkəzi kimi Kəlbəcərin gələcək mənzərəli turist mərkəzləri ilə bağlamış oluruq. Digər yollar, Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir. Bu yolların ümumi uzunluğu 700 kilometrə qədərdir. Çünki orada yol olmayıb, sərhədə gedən istiqamətdə yol olmayıb. Orada qar may ayında əriyib. İndi qış gələnə qədər - qış da oktyabr ayında gələcək, - oktyabr ayına qədər biz orada nə qədər yol çəkməliyik və bunu edirik. Bu, böyükmiqyaslı işdir, mətbuatda çox da işıqlandırılmır. Təbiidir, amma strateji nöqteyi-nəzərdən və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək nöqteyi-nəzərindən bu yolların çox böyük əhəmiyyəti var".



### "Dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik"

"Biz bu ilin sonuna qədər azad edilmiş torpaqlarda - həm Qarabağda, həm Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatını quracağıq: yeni xətlər, ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, elektrik stansiyaları. Ermənilər tərəfindən dağıdılmış 12 su elektrik stansiyasını ki, Kəlbəcər və Laçın rayonlarında onlara iki həftə möhlət verəndən sonra onları yandırıb dağıtmışdılar. Beləliklə, bu, əsas məsələdir. Çünki bu olmasa, heç bir inkişafdan söhbət gedə bilməz".

İlin sonuna qədər planlaşdırılır ki, tam yekunlaşdıraq. Amma, əlbəttə ki, bundan sonra dediyim kimi, yaşıl enerji layihəsi icra ediləcək. Artıq bir xarici şirkət tərəfindən maraq göstərilib. 200 meqavatlıq günəş elektrik stansiyasının xarici şirkətin vəsaiti hesabına tikintisi ilə bağlı razılığa gəldik. Bu, çox gözəl, önəmli hadisədir. Eyni zamanda,





başqa şirkətlər üçün də bu, bir siqnaldır. Mən bilirəm ki, indi dünyanın müxtəlif enerji şirkətləri öz prioriteti üçün bərpaolunan enerjini təsbit ediblər. Biz onları da dəvət edirik, gəlsinlər, investisiya qoysunlar. Bizim şaxələndirilmiş enerji şəbəkəmiz var, bizim bütün qonşu ölkələrlə - Türkiyə, Rusiya, İran, Gürcüstanla yüksək gərginlikli enerji xətlərimiz var. Biz istənilən yerə enerjini ötürə bilərik. Məsələn, biz İrana indi ixrac edirik, Rusiyaya həm ixrac edirik, həm idxal edirik, amma daha çox ixrac edirik. Eyni zamanda, Gürcüstana, Türkiyəyə ixrac edirik. Daxili tələbat artacaq. Ona görə bu sahə xüsusi önəm daşıyır".

Dövlət başçısı onu da vurğulayıb ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik: "Bütün xərcləri öz hesabımıza edirik, heç bir yerdən bir manat yardım almamışıq. Bəli, xarici şirkətləri biz dəvət etmişik, amma podratçı kimi. Bütün vəsait dövlət büdcəsindən gedir. Dövlət büdcəsi üçün bu, böyük yükdür. Təbiidir, amma biz bunu edirik, edəcəyik. Dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik".







Bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində verilən sərəncam və fərmanlar, həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevrilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər. Tezliklə işğaldan azad edilən ərazilərdə reallaşacaq sosial layihələr də həm Qarabağın dirçəlişinə təkan verəcək, həm də "Böyük Qayıdış"ı sürətləndirəcək.

Dövlət başçımızın dediyi kimi: "Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik". Çünki Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır

**RƏFİQƏ HÜSEYNOVA**

# 2 sentyabr: qırmızı təqvimin qaraya çevrilməsi



**Zaman keçdikcə Ermənistanda sağlam düşünmək istəyənlərin sayında artım müşahidə edilir. Obyektiv düşünmək iddiasında olanlar öncə regionda baş verən hadisələrin təhlilini aparır, ölkəsinin harada, nə vaxt və necə səhvlərə yol verdiyini analiz edir, düşdüklərin bu ağır durumdan çıxış yollarını arayır, günahkarları bir daha dəqiqləşdirir. Erməni analitik Tevos Arşakyan da Qarabağda yaşayan ermənilərin indiki durumu, "müstəqillik günü" barədə qeydləri mətbuatda yer alıb.**

Arşakyan yazır: Erməni xalqının tarixində daha bir qara tarix təqvimə düşdü - 2 sentyabr. Keçən ilin bu günü bir-birimizi bayram münasibətilə təbrik edirdik, amma bu gün təqvimin qırmızı günü qara rəngə boyandı. Xalqımızın yaddaşında bu qədər kədərli tarixlər çoxdur, ancaq 2 sentyabr 2021-ci il tarixə "Dağlıq Qarabağ Respublikası"nın sonu - ölüm günü kimi düşəcək.

Söhbət təxmin etdiyiniz kimi, ikinci erməni dövlətinin müstəqillik günündən gedir. 30 il əvvəlin bu günü xalq deputatları məclisinin iclasında "Dağlıq Qarabağ Respublikası" elan edildi. Şuşada yaşayan azərbaycanlı silahlılar tərəfindən Qarabağın paytaxtının davamlı atəşə tutulmasına baxmayaraq bu müstəqillik elan edildi. Sonra daha çətin günlər gəldi, şəhər sakinləri evlərinə çevirdikləri zirzəmilərdə gizlənərək sağ qaldılar.

1994-cü ildə bağlanan atəşkəs sazişindən sonra, Ermənistan prezidentləri Koçaryan və Sarkisyan başda olmaqla bütün vəzifəli şəxslər ildə ən azı iki dəfə - Şuşanın azad edildiyi gün - 8 mayda və 2 sentyabrda Müstəqillik Günündə "Artsax"a gələrdilər.

Amma "Artsax"ın müstəqilliyinin 30-cu ildönümündə Ermənistanın ən yüksək vəzifəli şəxslərindən heç biri özlərinə əziyyət verib unudulmuş, taleyin ümidinə buraxılmış bu torpağa gəlmədi. Prezident Sarkisyanın adından quru kağız üzərində təbrik ünvanlansa da, o da Qarabağa gəlməyi lazım bilmədi və harada olduğu da bəlli deyil. Beləliklə, sentyabrın 2-də Ermənistan rəsmiləri "Artsax"ın müstəqillik günü münasibətilə mesajlarını dincəldikləri istirahət otaqlarından, xarici ölkələrdən göndərdilər. Təmtəraqlı sözlər əvəzinə Qarabağa ayaqüstü də olsa gəlsəydilər bundan min dəfə yaxşı olardı.

Baş nazir Paşinyan da onlardan geri qalmadı, belə çətin dövrdə ya Rusiyanın Soçi şəhərində, ya da Ermənistanın heç kimə bəlli olmayan ucqar məkanlarında qısamüddətli tətil keçirmək qərarına gəldi. Müstəqilliyin 30 illiyi münasibətilə qısa mesaj göndərməklə işini bitmiş hesab etdi. Halbuki, 2020-ci ilin 8 may tarixində Şuşada yallı gedirdi, şənlənirdi. Əslində sonuncu olan şənlikdə onun hərəkətləri Azərbaycana müharibədən başqa yol buraxmadı. Amma bu gün Ermənistanın ali rəhbərliyinin heç bir nümayəndəsi, nə prezident, nə baş nazir, nə tətildə olan baş naziri əvəz edən Papikyan, nə də xarici işlər naziri Mirzoyan Qarabağa gəlmədilər. Deməli, məğlubiyyətlə, Qarabağın itirilməsi ilə barışıblar.

Onların utancverici davranışlarının səbəbi nədir? Cavab dəhşətlidir və aydındır. Bir tərəfdən, Ermənistanın ən yüksək vəzifəli şəxsləri qorxurlar, düşünürlər ki, onların Qarabağa gəlməsi Əliyevi qəzəbləndirər, digər tərəfdən, Qarabağa gəlmədikləri barədə kimin nə deyəcəyi onların vecinə deyil, ən azından onların Qarabağdan da vacib işləri var. Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur naziri Vahaqn Xaçatryan isə Ermənistan rəhbərliyinin bu gün "Artsax"a getməməsi barədə verdiyi qərarı normal hesab edir: "Deməli, lazımdır. Bunun üçün siyasi qərar qəbul edilib. Başqa heç nə axtarmayın, hər şey qaydasındadır".

Ermənistan müxalifətinin indiki "ataları", Ermənistanın ikinci və üçüncü prezidentləri Robert Köçəryan və Serj Sarkisyan da sentyabrın 2-də "Artsax"a gəlmədilər. Baxmayaraq ki, hər ikisi burada doğulublar, onlar doğma "Artsax"ı ziyarət edə bilərdilər. Amma Köçəryanla Sarkisyan bunu etmədilər, çünki onlarda ürək yoxdur, qorxaqdırlar.

Əlbəttə Qarabağda baş verənlərdən ürəyi dağlanan Ermənistan vətəndaşlarını başa düşmək olar. Həqiqətən də, prezident, baş nazir və Ermənistan hökumət üzvləri sentyabrın 2-də "DQR"-ə gəlsəydilər, Stepanakertin erməniləri üçün İrəvanla eyni paytaxt olduğunu və Artsaxın Ermənistanla eyni erməni dövləti olduğu barədə bir növ ümumi erməni mesajı vermiş olardılar. Ancaq səlahiyyətlilər bunu etmədilər, bu o deməkdir ki, onlar artıq "Artsax"ı ürəklərindən siliblər, onun itirilməsi ilə barışıblar. Ya da Paşinyanın blokundan olan deputatlar kimi daşa basılmaq istəmədilər. Reallıq isə budur ki, "8 may" və "2 sentyabr" erməni xalqı üçün 27 Fevral, 13 Yanvar, 10 Aprel, 27 Oktyabr, 9 Noyabr kimi qara təqvim tarixinə çevrildi...

Özünü Qarabağdakı ermənilərin lideri kimi təqdim edən Arayik Arutyunyan rus sülhməramlılarının mövcudluğundan ilham alaraq, həm də Ermənistan rəhbərlərinə gözdağı vermək üçün nə isə etmək istəsə də, alınmadı. Əksinə, bütün zəifliyini, itdiyini, bitdiyini, məhv olduğunu isbat etmiş oldu. Əslində Arayikə qalsa günü bu gün Moskvaya uçar, bu yaxınlarda açdığı oteldə administrator kimi işini davam etdirərdi. Amma sülhməramlılar imkan verərmi?

Növbəti etirafçı Xaçatur İ. adlı erməni analitik isə digər mətləblərə toxunub:

Belə bir deyim var, "göz yaşı içində bayram". "Artçax"ın 30 illik yubileyində də bu deyim yada düşdü. Bəli, biz bu bayramı belə təsəvvür etmirdik. 30 il zaman etibarilə uzundur. Bu müddət ərzində iri dövlətlər, xüsusən də ATƏT-in Minsk qrupunun həmsədr ölkələri ermənilərin öz müqəddaratını təyinetmə hüququndan ağızdolusu danışsalar da "Artçax"ın müstəqilliyini tanımaq barədə düşünmək istəmədilər. Fransanın kiçik şəhərləri ilə "Stepanakert"i qardaşlaşdırdılar, amma Fransanın rəsmi dairələri "Artsax"ı dövlət kimi tanımadılar.

ABŞ rəsmi olaraq "Artçax"a maliyyə vəsaiti ayırdı, Azərbaycana isə silah satışını məhdudlaşdıran "907-ci düzəliş"i tətbiq etdilər, amma rəsmi Vaşinqton "Artçax"ı müstəqil dövlət kimi tanımadı. Hərçənd bunu etmək onlar üçün heç də çətin deyildi.

Rusiyaya gəlincə, Ermənistan hər şeyini, iri müəssisələrini ona verdi. Hətta Türkiyə və İranla sərhədlərinin qorunmasını Rusiya sərhədçilərinə həvalə etdi. İndi də Azərbaycanla sərhədlərimiz rusiyalı sərhədçilər tərəfindən qorunur. Bizim tərəfimizdən nə lazımdırsa, hər çür addım atılıb, amma rəsmi Moskva da 30 il ərzində "Artçax"ın müstəqilliyini tanımaqdan faktiki olaraq imtina edib. 44 günlük müharibə zamanı da Rusiya əlini əlinin üstünə qoyub müşahidə aparmaqla işini bitmiş hesab etdi. Halbuki, Ermənistan Rusiyanın müttəfiqidir, KTMT-də birgə təmsil olunurlar və bu qurumun qanunlarına görə, Moskva İrəvanı tək qoymamalı idi.

Praktika göstərir ki, Rusiya heç vaxt bizim müttəfiqimiz olmayıb. Moskva Ermənistan və "Artçax"dan yalnız öz strateji məqsədlərinə çatmaq üçün istifadə etdi. İndi Laçın dəhlizi Rusiyanın nəzarəti altındadır və sülhməramlı adı altında "Artçax"da ağalıq edir. Dolayısı ilə Rusiya müharibədə iştirak etmədən, döyüşsüz hər iki tərəfdən çox pay qoparıb. Biz 1989-cu ildə müharibəyə başlayanda qarşımıza belə bir məqsəd qoymamışdır. Belə çıxır ki, tökülən qanlar əbəs yerə imiş. 30 ilin nəticəsi budur - qəhrəmanlarımızın məzarı tüpürcək yerinə çevrilib. Ora təkcə Fransa, ABŞ, ya da Rusiya tüpürmür, ora Ermənistanda hakimiyyət davasına çıxan hər kəs tüpürür.

"Qarabağ xalqının öz müqəddaratını təyinetmə mövzusu müzakirə mövzusu ola bilməz" deyən Paşinyan və onun komandası parlamentdə üstünlük təşkil etsələr də, qanunların qəbulunda söz sahibi olsalar da, "Artçax"ın müstəqilliyini tanımağı ağıllarının ucundan da keçirmirlər. Deməli hər şey sözdə imiş. Maraqlar təmin olunandan sonra "miaçume" kimsənin yadına da düşmür...

Bəli, ermənilərin qurmaq istədiyi, lakin 30 il çalışdıqları iş fiaskoya uğradı. Təbii ki, belə də olmalı idi. Dünya ölkələri, hətta Ermənistan və ermənilər tərəfdən 30 il bizə qarşı mübarizə aparan ermənipərəst dövlətlər və təşkilatlar haqqın, ədalətin kimin tərəfində olduğunu bildikləri üçün Azərbaycanın ərazilərində ikinci erməni dövləti yaratmağa cürət edə bilmədilər.

***V.VƏLİYEV***

# Streslə necə mübarizə aparmaq olar?

## SORĞU




Dövrümüzün ən böyük problemlərindən biri də, heç şübhəsiz, stressdir. Stress insana hər cəhətdən zərər verən bir hadisədir. Stress dedikdə, stress fiziki və emosional olaraq qəbul edilən hər hansı bir təhlükənin öhdəsindən gələ bilməmək nəticəsində yaranan və gündəlik həyata mənfi təsir göstərən gərgin bir prosesdir. Təhlükə hiss etdiyimiz zaman, sinir sistemimiz bədənimizi oyadan bir stress hormonu ifraz edir, nəticədə qan təzyiqi yüksəlir, ürək döyünür, əzələlərimiz sıxılır və hisslərimiz kəskinləşir. Stress bir neçə siptomlarla özünü göstərir. Bu simptomlara fiziki, zehni və emosional simptomlar aiddir. Fiziki simptomlar: Stresin fiziki əlamətləri yuxu pozulması, baş ağrısı, dişlərin çırpılması, həddindən artıq tərləmə, əzələ ağrıları, qəbizlik və ya ishal, yorğunluq, enerji itkisi, yüksək qan təzyiqi və infarktdır. Zehni simptomlar: Qərar verməkdə çətinlik, konsentrasiyanın olmaması, unutqanlıq, yaddaşın zəifləməsi, səhv etmənin artması və iş keyfiyyətinin aşağı düşməsi zehni simptomlardan biridir. Emosional simptomlar: Bədəndəki dəyişikliklər fərdlərə emosional olaraq da təsir edir. Bu səbəbdən, stresli dövrlərdə fərdlərin emosional meylləri əhəmiyyətli dərəcədə fərqlənir. Depressiya və tez ağlama, narahatlıq və əhvalın sürətli dəyişməsi, qəzəb, təcavüz, düşmənçilik, gərginlik və əsəbilik stressin emosional təsirləridir. Yəni stress özü bir xəstəlik kimi göstərilməsə də, bir sıra xəstəliklərin səbəbi ola bilər. Depressiya və narahatlıq pozğunluqları, arıqlamaq və ya sağlam olmayan arıqlamaq, dəri problemləri, müxtəlif ürək xəstəlikləri, həzm sistemi problemləri (qastrit, ülser, mədə ağrısı), yuxu problemlərinin olması, yaddaş problemləri və zehni problemlər (Alzheimer, Demans), immunitet sistemi xəstəlikləri, reproduktiv problemlər, hər cür ağrı və ürək xəstəliyi stresin səbəb olduğu xəstəliklərə misal göstərilə bilər. Bəs, streslə necə effektiv mübarizə apara bilərik?

Bu barədə analitik-ekspert, yazıçı-kulturoloq Aydın Xan Əbilov fikirlərini bizlə bölüşüb. O, bu barədə fikirlərini belə izah edib: "XX əsrin ortalarından, yəni ikinci dünya müharibəsi bitəndən sonra psixo-stress vəziyyət bütün dünyada hökm sürdü. Bundan sonra iqtisadi böhran oldu. Bu da insanlara daha çox təsir edirdi. İkinci dünya müharibəsindən sonra, post-müharibə dövrünün stresi özünü bir neçə sonrakı mərhələdə də göstərməyə başladı. Bu istər cəmiyyətlərdə, istərsə də ayrı-ayrı toplumlarda 10 ildən bir yeni-yeni dalğaları ilə özünü göstərməyə başladı. Sonuncu dəfə dünyada və Azərbaycanda ümumi stress və cəmiyyətin psixoz vəziyyətinə təsir edən hadisələr baş verdi. Azərbaycanda bu hadisə Qarabağ müharibəsi idi, dünyada isə istiliyin dağılması və ən sonuncu hadisə Əfqanıstan hadisəsi oldu. Bu psixoz vəziyyət eyni zamanda son illərin internet və sosial şəbəkələrin inkişafı, yeni texnologiyaların inkişafı və ən axırıncı dünya stress dalğası koronavirusla bağlı idi. Bu da hər bir cəmiyyətdə, dünyanın hər bir ölkəsində olduğu kimi Azərbaycana da təsir etdi. Azərbaycan insanı həm ümumi psixoz vəziyyətə,həm də stress vəziyyətinə düşdü. Bu stress də bizim gündəlik həyatımıza təsir etməyə başladı. Artıq ənənələr dağıldı. Milli mental dəyərlər öz yerini yeni liberal dəyərlərə verdi. Hər kəs artıq mən varam, mənim azadlığım var, mənim iqtisadi vəziyyətim yaxşı olsun düşüncəsi ilə yaşadığına görə, artıq insanların bir-birinə kömək etməsi mental dəyərlərdən irəli gələn paylaşmaq, sosiallaşma arxa plana keçdi. Bununla da insanlar özünəqapanmaya keçdilər. Sonra da üstünə koronavirus qapanmaları və karantin qaydaları gəldi. İşsizlik və baş verən digər problemlər istər-istəməz stresin ən böyük variantı ilə insanları üz-üzə qoydu. İnsanlar bu stresin içində sanki bilmirdilər neynəsinlər. Onun da qarşısını almaq üçün bütün dünyada qəbul edilmiş variantlar var. Burada stresin psixoloq və psixoanalitika tərəfindən fərdi stress altında olan insanları xilas etmək, cəmiyyəti isə ümumi stress vəziyyətindən xilas etmək üçün müxtəlif mədəniyyət hadisələri, tədbirlərin keçirilməsi və s. kimi addımlar var. Stresdən azad olmaq üçün, əlbəttə ki, incəsənət, mədəniyyət, kütləvi tədbirlər insanlara kömək etmiş olur. Digər tərəfdən ictimai hadisələr, mədəniyyət hadisələri insanlara kömək etmiş olur. Digər tərəfdən psixoz vəziyyətdən çıxartmaq üçün,hətta din, məscidlər, ibadət evləri belə insanlara kömək etmiş ola bilər. Amma, əlbəttə ki, bununla bağlı xüsusi dövlət proqramları olmalıdır ki insanları xilas edə bilək. Fərdi stress ilə bağlı, təbii ki, çoxlu, hətta kliniki müalicə metodu da var. Bir çox ölkələrdə dağ və turizmin inkişafı, dağa gedib, gəzmək kimi metodlar var. Bu metodların hər birindən bu və ya digər şəkildə istifadə etmək mümkündür".





Həmçinin, psixoloq Vüsalə Əmiraslanova bu mövzuda bizə məlumat verib. O bu barədə düşüncələrini belə qeyd edib: "İnsan streslə təkbaşına və ya psixoloji dəstək alaraq mübarizə apara bilər. Gündəlik iş planı yaratmaq, bir neçə işlə məşğul olmaq ona ağır gəlirsə, ondan uzaqlaşmaq bu mənada yaxşı olar. Belə situasiyada insan, başqaları nə deyər deyə düşünməməli, çalışıb özünə vaxt ayırmalı və istirahət etməli, gündə 8 saatdan artıq çalışıb işləməməlidir. Bundan əlavə düzgün qidalanma, pozitiv insanlarla ünsiyyət qurmaq bu mənada stressdən xilas olmaq üçün faydalıdır. Stress nədən yaranır? Başqaları nə deyər deyə fikirləşmək, plansız iş qurmaq, monoton həyat sürmək, insanlarla ünsiyyət quranda onlardan istədiyimiz ala bilməmək stress yaradan faktorlardır".

***Turqay Musayev***

# Şuşada Vaqif Poeziya Günləri 30 ildən sonra




*"Mən əminəm ki, Şuşa işğaldan azad olunacaq və Molla Pənah Vaqifin məqbərəsi də öz xalqına qayıdacaq"*

*Heydər Əliyev*
*Azərbaycan xalqının Ümummilli lideri*



***Ramiz Göyüşov***
***YAP Binəqədi rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən***

2021-ci il avqustun 30-da, 30 ildən sonra Şuşada Vaqif Poeziya Günləri bərpa olundu. Bu tədbirin keçirilməsi çox mühüm ədəbiyyat və mədəniyyət hadisəsi olmaqla, həm də böyük əhəmiyyət kəsb edən siyasi hadisə idi.

"Əziz dostlar! Bu gün ölkəmizin həyatında çox əlamətdar gündür. Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışını qeyd edirik. Bu münasibətlə Sizi və bütün Azərbaycan xalqını təbrik edirəm". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tədbirin açılışında, çıxışının əvvəlində bu fikirləri səsləndirməklə, əslində bu hadisənin miqyasını və əhəmiyyətini bütün ictimaiyyətinə və dünyaya təqdim etmiş oldu.

Etiraf etməliyik ki, 1982-ci il yanvarın 14-də qarlı-şaxtalı bir gündə Azərbaycanın qədim şəhəri, Qarabağın incisi, Qarabağ xanlığının keçmiş mərkəzi, Şuşada Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məzarı üstündə məqbərə və abidə ucaltmaq, o dövr üçün ideoloji baxımdan fövqəladə bir iş idi. Heç şübhəsiz Molla Pənah Vaqifin yaradıcılığına, fəaliyyətinə və şəxsiyyətinə ən böyük dəyərlərdən birini bu işləri görməklə Ümummilli liderimiz Heydər Əliyev verdi.

1987-ci ildə Ümumilli liderimiz Heydər Əliyev xain Mixail Qorbaçov tərəfində Moskvadakı vəzifəsindən uzaqlaşdırıldıqdan sonra hökumətdə yüksək vəzifə tutan ermənilər, SSRİ hökumətinin başında duran ermənipərəst rəhbərlərin dəstəyi ilə Dağlıq Qarabağın Ermənistana birlədirmək ideyasını gerçəkləşdirməyə başladılar və bu proses 90-cı illərin əvvəlində Dağlıq Qarabağın, o,cümlədən Şuşanın, Dağlıq Qarabağ ətrafındakı rayonların və Şərqi Zəngəzurun işğalı ilə yekunlaşdı. Ermənilər işğal altında olan ərazilərdə tarixdə görünməmiş vəhşiliklər törətdilər. Təkcə Şuşada 600-dən çox tarixi abidələr, o cümlədən Molla Pənah Vaqifin məqbərəsi, məzarı və abidəsi məhv edildi.

...Azərbaycan düz 26 il ərzində münaqişənin həlli ilə əlaqədar sülh variantına sadiq qaldı. Bu illər ərzində Ermənistan hər dəfə danışıqların həlledici məqamında bir bəhanə gətirərək və ya bir hadisə törədərək danışıqları dalana dirədi.

Düşmən tərəfi nə qədər danışıqları pozsa da, status-kvonu uzatmağa çalışsa da, Azərbaycana qarşı yeni ərazi iddiaları niyyəti ilə təxribatlar törətsə də, cənab İlham Əliyev dözmək həddinə, dözüm sərhədinə qədər dözdü. Nəhayət onların növbəti təxribatının qarşısı qətiyyətlə alındı. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində Azərbaycanın böyük və müqəddəs qələbəsi təmin edildi. Bu qələbə nəticəsində müstəqilliyimiz də, ərazi bütövlüyümüz də təmin edildi. Qarabağın incisi Şuşa düşmən işğalından azad edildi.

Hələ oktyabın 16-da Türkiyənin "A Haber" kanalına müsahibəsi zamanı cənab Prezident deyirdi: "...Amma Şuşasız bizim işimiz yarımçıq qalar... Şuşanın azad edilməsi bizim hədəflərimiz arasındadır, nə zaman olacaq, bunu görərik."

...Və budur Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri, Şuşanın işğaldan azad edilməsi günü, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev 2020-ci il noyabrın 8-də səhər-səhər Azərbaycan xalqına müjdə verir: "Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm...

...Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"...

Artıq 17 ildir ki, cənab İlham Əliyev Ulu öndərimiz Heydər Əliyevin başladığı, lakin yarımçıq qalmış işləri mərdliklə, qətiyyətlə, uğurla və sədaqətlə (o cümlədən Molla Pənah Vaqiflə bağlı) başa çatdırmaqdadır. Hələ 1992-ci ildə Ümumilli liderimiz görüşlərinin birində deyirdi: "Ümidvaram ki, Vaqifin məqbərəsi yenidən əvvəlki gözəlliyinə qayıdacaq..."

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "Molla Pənah Vaqif öz ənənələri ilə seçilən, ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə, milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir... Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir" deyərək, 2017-ci ildə Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayanda da, TÜRKSOY-un qərarı ilə 2017-ci il "Vaqif ili" elan ediləndə də, indi 2021-ci il avqustun 30-da Molla Pənah Vaqifin məqbərəsini və abidəsini bərpa edib açanda da, möhtəşəm "Vaqif Poeziya Günləri" keçirəndə də və bu ildən başlayaraq, hər il Şuşada bu tədbirin keçirilməsi barədə göstəriş verəndə də, O, bu işlərin ümummilli liderimiz Heydər Əliyev tərəfindən başlandığını və onların davamı və bərpası olduğunu nümayiş etdirir.

Təbii ki, Prezidentimizin gördüyü çoxsaylı misilsiz işlərin fonunda Vaqifin məqbərəsinin bərpası, abidəsinin qoyulması və "Vaqif Poeziya Günləri"nin keçirilməsi kiçik görünə bilər. Lakin bu işlər də Qarabağda, Şərqi Zəngəzurda və Şuşada başlanmış nəhəng quruculuq və bərpa işlərinin bir issəsi olmaqla, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və dövlətçiliyi tarixində mühüm hadisədir, cənab İlham Əliyevin adı ilə tariximizə həkk olundu. Bütün bu işlər insanda qürur hissləri yaratmaqla, Prezident İlham Əliyevə ümumxalq sevgisi və məhəbbəti qazandırır.

İllər ötəcək, xalqımız Prezident İlham Əliyevin Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyəti qarşısındakı bu xidmətlərini də minnətdarlıqla yad edəcək.





# Həqiqət hər zaman yalan üzərində qələbə çalıb

*Qaragüruhun daha bir öndə gedəni Əli Əliyev kimi avantürist riyakarlar...*

"Yalanın zaman baxımından bir ömrü olsa da, həqiqət əbədidir" zərb-məsəli müdrik Nizami Gəncəvinin iki əks qütbdə dayanan "Xeyir və Şər"in mübarizəsi ilə eyniləşir. Bütün sınaqlarda böyük xeyirxahlıq nümayiş etdirən "Xeyir"in, sonda qazanmış olduğu parlaq qələbəsinin fövqündə "Şər"in rəzil ölümü, əslində, əbədi həqiqətin mütləq təntənəsinin təzahürü idi. Bu gün Azərbaycan dövlətinin diplomatik "Dəmir yumruq" siyasəti nəticəsində 20 faizdən çox torpaqlarımızı 30 il əsarətdə saxlayan, "Böyük Ermənistan" xülyasına, "24 aprel" stereotipinin ağ yalanlarına 44 gün ərzində son qoyuldu, əzə bildi. Bu Azərbaycanın haqq yolu idi və həqiqət hər zaman yalan üzərində qələbə çalıb. Bu əzm xalq-dövlət birliyinin, inamının qələbsidir. Ali Baş Komandanın, Azərbaycan Prezidentinin "Dəmir yumruq" siyasətinin qələbəsidir. Və bu qələbədə bütün şəhidlərimizin, Xocalı soyqırımı, 31 mart soyqırımı şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının dediyi kimi: "Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir, Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız".

Beləliklə, bir daha bütün dünya Azərbaycanın illər boyu haqq yolunda olduğunun şahidi oldu. Çünki haqqın tapdandığını görüb, onu müdafiə etməmək xəyanətdir, deyib ulu babalarımız. Bu gün Azərbaycan dövləti məhz bu haqq yolunda qürurla, inamla, vüsətlə, şərəflə və ləyaqətlə addımladığı halda...

### Sosial şəbəkələrdə Əli Əliyev kimilər "reallıq" axtarırlar...

Fizikadakı adi hərəkət qanununa görə, dalğa bir yerdə qala bilməz; o, fasiləsiz olaraq irəli və geri hərəkət etməlidir. Tarix də elədir. İctimai həyatın çirkin ifrazatı radikal ruhlu müxalifətin sıralarında yer aldığına görə o nə isə etmək, bacarmaq, yaratmaq iqtidarında deyil. Bir də deyirlər ki, dəniz çirkab götürmür; o, yad cisimlərdən xilas olmaq üçün güclü dalğaları ilə vurub sahilə çıxarır. Öz doğuşu və təşəkkülü ilə ən yeni tariximizin ikrahdoğurucu səhifələrindən birini yazmış radikal, antimilli müxalifət də cəmiyyətimizin kükrəyən inkişaf ahənginin miqyaslarına tab gətirməyərək siyasi səhnədən silinmək də, çökməkdə, iflas etməkdədir.

Bu gün özünü müxalifət adlandıran, cəmiyyətdə dayağı olmayan, hələ də mitinq və küçə təfəkkürü ilə yaşayan "VİP" sədri Əli Əliyev, AXCP sədri Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və... kimi mənəviyyatsızlar 30 il əvvəlki ağıl və düşüncə, vərdişləri unuda bilmirlər. Ancaq anlamırlar ki, dünya inkişaf edir. Və hələ də anlamırlar ki, indiki hakimiyyət milli hakimiyyətdir. Azərbaycan müxalifəti isə milli maraqlardan, millilikdən uzaqlaşıb. Və bu gün Əli Əliyev kimi "dil pəhləvanları" 44 günlük Vətən müharibəsinin bitməsindən dərhal sonra sosial şəbəkələrdə qələbəmizə qarşı çirkin çıxışları xalq tərəfindən nifrətlə qarşılanır.

### Elman Nəsirov: "Əli Əliyev, isti yerdə oturub, ağzına gələni danışma"

Son günlər "VİP" sədri Əli Əliyevin sosial şəbəkələrdən dövlətin əldə etdiyi uğurlara kölgə salmağına cavab olaraq millət vəkili Elman Nəsirov hər zaman "vətənpərvərlikdən" danışan dil "pəhlivanının" övladlarının müharibədə iştirak edib-etmədiyini soruşub. Bununla da anlaşılmazlıq yaranıb. Ə.Əliyev əvvəlcə 3 oğlu olduğunu və onların çağırış gəlmədiyi üçün müharibəyə getmədiklərini bildirib. Daha sonra isə yalnız bir oğlu olduğunu və onun da səhhətində problem olduğu üçün müharibəyə çağırılmadığını deyib.Millət vəkili : "Bəli, sosial şəbəkələrdə dil "pəhləvanı" olmaq "qəhrəmanlıq" olmadığını və isti yerdə oturub, ağzına gələni danışma. Və bu gün sənin kimlər dəfələrlə söyləyirsiniz ki, Qarabağ torpaqlarını iqtidar heç vaxt geri qaytara bilməz. Amma nə baş verdi? 44 gün ərzində Azərbaycanın Ali Baş Komandanının rəhbərliyi ilə ordumuz tarixi qələbəyə imza atdı".

O ki qaldı "VİP" sədri Əli Əliyevin "torpaqları biz onsuz da boşaldacaqdıq" fikrinə, Elman Nəsirov bildirib ki, bəzi fikirlər var ki, onlar heç tənqidə dözmür: "Bir dəfə Ə. Əliyevlə debatda olarkən o dedi ki, Azərbaycan iqtidarı torpaqları heç vaxt azad etməyəcək. Sual verdim ki, torpaqların azad edilməsinə dair bir planınız var? O da dedi ki, bəli, var, əgər biz hakimiyyətdə olsaq, ABŞ, Fransa və Rusiyada görəcəklər ki, Azərbaycanda demokratik qüvvələr hakimiyyətə gəlib və bunun özü münaqişənin həlli üçün yaşıl işıq yandıracaq. Mən də bunun nəyə bənzədiyini açıqladım. Dedim ki, sizin məntiqinizlə Vaşinqtondan İrəvana zəng vurub, Paşinyana deyəcəklər ki, xəbəriniz var, bəs Azərbaycanda demokratik qüvvələr hakimiyyətə gəlib?! Buna görə də, vaxtı ilə işğal etdiyiniz torpaqları geri qaytarın. Vurğuladım ki, 30 il keçməyinə baxmayaraq sizin düşüncə və məntiqiniz hələ də dəyişməyib. Olduqca bəsit yanaşmaları. İndi də deyir ki, "onsuz da biz torpaqları qaytaracaqdıq." Əslində, torpaqların necə, nə vaxt və hansı yolla qaytarılması haqqında Prezident İlham Əliyev çıxışında bildirib".

Ölkə rəhbərinin başçılığı ilə 18 illik qələbəyə aparan yoldan söz açan Elman Nəsirov bildirib ki, özünü müxalifət kimi təqdim edənlər populizmlə məşğuldur: "Onlar görür ki, Azərbaycan Prezidenti müharibə dövründə necə böyük dövlət başçısı, diplomat və sərkərdə olduğunu bütün dünyaya sərgilədi. Müxalifət bu reallıqları, prezidentin yüksək reytinqini həzm edə bilmir. Bu səbəbdən də əsassız ittihamlar səsləndirirlər.

Deyirlər ki, torpaqları geri alacaqdıq. Bəs, niyə Gürcüstan Cənubi Osetiya və Abxaziyanı geri ala bilmir? Nə üçün Moldova hələ də Dnestryanı torpaqları özünə qaytarmır? Buna görə də, isti yerdə oturub, çayı qarşına qoyub, ağzına gələni danışma. Çünki dövlətimiz və dövlətçilik əleyhinə ittihamlar qəbuledilməzdir".

### Azərbaycanın bu uğurlarını həzm edə bilməyən Əli Əliyev kimilər...

Azərbaycanın bu uğurlarını həzm edə bilməyən Əli Əliyev kimilər ancaq ermənıyə dost və onun dəyirmanına su tökənləri adlandırmaq olar. Çünki bu gün Azərbaycan uzun illər işğal altındakı torpaqlarını azad etmiş, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində böyük işlər görür və bu uğurlara qısqanclıqla yanaşan "VİP"-nin sədri youtube kanallarında etdiyi radikal çıxışları ilə dil "pəhlivanlığı" ilə "sox şeylər edəcəyini" bildirir. Ən gülünc doğuran isə odur ki, "məsləhət verməklə" bir daha xalqın nifrətinə səbəb olur.

Ancaq hələ də anlamır ki, Azərbaycanın bu gün dünya çapında tutduğu mövqeyi və dünyada söz sahibinə çevrilməsi məhz Prezident İlham Əliyevin uzaqgörənliyi, siyasi iradəsi və vətəninə olan sevgisi sayəsində nail olunmuşdur. Və pafoslu çıxışlarla insanların xoşuna gəlmək olmaz. Çünki xalq son 18 il ərzində bütün sahələrdə qələbə qazanan Azərbaycan 44 gün davam edən İkinci Vətən Müharibəsi dövründə bizi qələbələrə aparan əsas faktorlardan biri möhtərəm Prezidenti 44 günlük savaş zamanı dünyanın 30-a yaxın mediasına çoxsaylı müsahibələr verdi, bir çox beynəlxalq tədbirlərdə etdiyi çıxış və bəyanatları ilə Qərb ictimai rəyində Azərbaycanın xeyrinə dönüş yarada bildi. Hətta qərəzli suallar qarşısında sözün əsl mənasında siyasi liderlik dərsi keçən Prezident Əliyev özünün hazırlıqlı siyasətçi olduğunu sübuta yetirməklə yanaşı, Azərbaycanın haqlı mövqeyini konkret faktlarla ortaya qoydu, bütün dünyaya çatdırdı. Müharibədən sonra 50-dən çox yerli və xarici media nümayəndələrinin iştirak etdiyi və 4 saatdan çox davam edən mətbuat konfransında isə Prezident İlham Əliyev jurnalistlərin suallarına dörd dildə - Azərbaycan, türk, ingilis və rus dillərində cavablandırdı. dünya miqyasında ictimai rəyin Azərbaycanın lehinə dəyişməsi təmin edilib.

Dövlət başçısının dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələrdə təkcə erməni yalanları ifşa edilməyib, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyaları da iflasa uğradılıb. Bir sözlə, dövlət başçısının həm müharibəni gedişində, həm də sonra beynəlxalq ictimai rəyi Azərbaycanın xeyrinə dəyişməyi necə bacardığının hər kəs şahididir. Mühüm beynəlxalq platformalarda nitqləri, müzakirələrdə iştirakı ilə Azərbaycan Prezidenti aydın göstərir ki, Azərbaycan iqtidarı dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə konseptual yanaşır.Bir sözlə, Əli Əliyev kimi ünsürlərin sosial şəbəkələrdə paylaşımları onların xarici himayədarlarından aldıqları sifarişlərin təqdimatıdır. Xalqa deyil, xarici anti-Azərbaycan dairələrə arxalanan, onların ssenariləri əsasında durub oturan bələlərindən ölkəmiz haqqında müsbət fikir gözləmək sadəlövhlük olar. Xalq onlara lazım olan dəyəri verib - tarixin zibilliyi. Bu qiymətdən dərs almaq əvəzinə, daha da anti-Azərbaycan təbliğatı aparmaq sağlamaz xəstəliklərinə işarədir. Həmçinin, bu xəstəliyin adı xəyanətkarlıq, mənəviyyatın itirilməsi, ən əsası satqınlıqdır. Bax, budur istər Əli Əliyev, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, qənimət Zahid, Vidadi İskəndərli, Sevinc Osmanqızı və ....kimi iblis xislətlilərin niyyəti. Ancaq çi fayda ki, onların bu istəyilə bir nəticə verməyəcək. Çünki satqınçılıq və xəyanətin ömrü az olur. Məgər bu reallıq dəfələrlə təsdiqini tapmayıbmı?

**Rəfiqə HÜSEYNOVA**

## Naqif Həmzəyev: "Əli Əliyevin fikirləri görülən işlərə kölgə salır"



"Azərbaycan 44 günlük Vətən müharibəsində qalib gəldi. Ordumuz erməni terrorçularını ərazilərimizdən qovdu. Azərbaycan dövləti cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Şərqi Zəngəzura qayıdış planını uğurla həyata keçirir. Xalqımız proseslərdən məmnundur. Tezliklə keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına qayıtmasının şahidi olacağıq. Əldə edilən zəfər Azərbaycanın iqtisadi inkişafına, regionda mövqeyini qoruyub saxlamasına, daha da güclənməsinə xidmət etməkdədir. Təəssüflər olsun ki, əldə edilən uğurları, həyata keçirilən işləri görməzdən gələn, düzgün qiymətləndirə bilməyən şəxslər də var. Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevin son dövrlərdə səsləndirdiyi bəzi fikirlər başqa məqsədlərə xidmət edir. O, populist və reallığı əks etdirməyən çıxışlarla özünə siyasi dayaq tapmaq, müəyyən dərəcədə reytinqini artırmaq istəyir. Nəticə etibarilə o, görülən işlərə kölgə salır". Bunu açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib.

N.Həmzəyev xatırladıb ki, cənab Prezident İlham Əliyev çıxışlarında dəfələrlə Azərbaycanı dəstəkləyən dövlətlərin adını sadalayıb: "Bilirik ki, dostumuz və düşmənimiz kimdir...".

Deputatın sözlərinə görə, Azərbaycan və Türkiyə münasibətlərinə kölgə salmaq istəyən qüvvələr anlamalıdırlar ki, Azərbaycan və Türkiyə qardaş ölkədir, strateji müttəfiqdir: "Hələ bir müddət əvvəl Şuşa Bəyannaməsi imzalanıb. Bu, Azərbaycana ən böyük dəstəkdir. Azərbaycan da həmişə Türkiyənin yanındadır. Ölkəmiz balanslaşdırılmış siyasətini həyata keçirmək gücündə, qüdrətində olan dövlətdir. Heç kəs Azərbaycan və Türkiyə münasibətlərinə kölgə sala bilməz. Təəssüflər olsun ki, Rusiyanı və Belarusu tənqid edən Əli Əliyev vaksin məsələsində həmin dövlətlərdən misallar çəkir. Anlamır ki, pandemiyadan yeganə çıxış yolu vaksinasiyadır. Hazırda güclü dövlətlər vaksinasiyaya üstünlük verirlər. Qardaş Türkiyədə də vaksinasiya ilə bağlı sərt qaydalar tətbiq edirlər. Orada hətta 3-cü və 4-cü doza vaksinlər də vurulmaqdadır. Azərbaycanda vaksinasiya prosesi dövlət tərəfindən həyata keçirilir, xidmət tam ödənişsizdir. Hansısa xoşagəlməz hal varsa da belə, hüquq mühafizə orqanları tədbir görürlər. Vaksinasiya ilə bağlı manipulyasiyaya ehtiyac yoxdur. Vaksin olunan şəxslər bu bəlanı daha asan sovuşdura bilir. Həkimlərimizin əməyini, dövlətin həyata keçirdiyi işləri yerə vurmaq düzgün deyil. Vaksin olunmaqla həm özümüzü, həm də ətrafdakı insanları qoruyuruq. Kim vaksin vurdurmaq istəmirsə, öz işidir. Dövlət işində, xüsusilə təhsil sahəsində çalışanlar peyvənd olunmalıdırlar. Xidmət sahələrində çalışanların da peyvənd olunması tövsiyə edilir. Hansısa kiçik nöqsanları qabardaraq manipulyasiya etmək düzgün deyil. Tövsiyə edərdim ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi işlərə yalnız dəstək verək. Belə etməklə qarşıya qoyduğumuz məqsədlərə daha tez çata bilərik. Ermənilərin maraqlarına xidmət edən fikirlərin tirajlanmasına yol verməməliyik. Biz birlik və bərabərlik nümayiş etdirməliyik, cənab Prezidentin ətrafında həmrəy olmalıyıq". yap.org.az

## Avropada qazın qiyməti qaz vurur...

Qərbdən alınan ticarət məlumatlarına görə, Avropa fyuçers bazarında səhər ticarətində qazın qiyməti min kubmetr üçün 650 dolları keçib. SİA bu barədə Rusiya mətbuatına istinad edir.

Beləliklə, Hollandiyadakı TTF mərkəzinin oktyabr fyuçers müqaviləsinin dəyəri min kubmetr üçün 654,1 dollara çatıb. Hazırkı dəqiqələrdə qiymət artımı bir qədər yavaşlasa da, amma Avropada min kubmetr qaz üçün dəyər təxminən 650 dollar olaraq qalmaqdadır.

Xatırladaq ki, bir qədər əvvəl "Qazprom" departamentinin rəhbəri Aleksandr İvannikov Avropada qazın qiymətinin yaxın gələcəkdə indiki səviyyədə qalacağını bildirmişdi.

**Ağasəf**






# “Artsax”ın saxta “30 illik müstəqilliyi” gorbagor oldu

**Sentyabrın 2-də Qarabağdakı separatçı tör-töküntülərin başçıları Xankəndidə Azərbaycana qarşı növbəti açıq təxribat yaratmaq niyyətindən daşındılar. “Artsaxın müstəqilliyi”inin 30-cu ildönümü ilə bağlı separatçı ünsürlərin guya oyuncaq rejimin varlığını nümayiş etdirmək niyyətləri boşa çıxdı. Ermənistan rəhbərliyinə daxil olan şəxslərdən heç kim “müstəqillik tədbiri”nə qatılmağa cürət etmədi. Hərəsi bir bəhanə ilə aradan çıxdı.**

Ermənistanda nəşr olunan “Joxovurd” qəzeti qeyd edib ki, sentyabrın 2-də separatçılar Xankəndidə tədbir planlaşdırmışdılar. Lakin nə prezident Armen Sarkisyan, nə baş nazir Nikol Paşinyan, nə də Ermənistan parlamentinin sədri Alen Simonyan “tədbirə” qatılmadılar. Yəni Xankəndiyə getmədilər: “Baş nazirin mətbuat katibi Mane Gevorkyanla əlaqə saxlaya bilmədik, amma bizə xəbər verdilər ki, Paşinyan bugünlərdə Ermənistanda olmayacaq . O, Soçidə dincəlir”.

Bunların məntiqi nəticəsi olaraq Xankəndidəki separatçılar əvvəlki illərdəki kimi “təntənəli”"müstəqillik “ günü keçirməyiblər.

Haşiyə çıxaq ki, sentyabrın 1-də təhsil işçilərini, tələbələri və şagirdləri “Bilik günü” münasibətilə təbrik edən baş nazir Nikol Paşinyan “artsaxlı” müəllimləri, tələbələri və şagirdləri “yaddan çıxarıb,” yəni “Artsax”ın adını belə çəkməyib.

Əslində Ermənistan rəhbərlərinin Xankəndiyə qanunsuz səfərləri heç mümkün də deyil və Bakıya açıq-aşkar müharibə çağırışı anlamına gələrdi. Eyni zamanda, bu, hazırkı həssas durumda İrəvanın imza atdığı 10 noyabr 2020 və 11 yanvar 2021-ci il üçtərəfli Bəyanatların sabotaj edilməsi, Ermənistanın Azərbaycanla sülhdə maraqlı olmamasının əyani nümayişi, sülhə meydan oxuması olardı. Bu isə indi İrəvana baha başa gələr.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük müharibədən az sonra, yəni 2021-ci ilin yanvarında Ermənistanın o vaxtkı xarici işlər naziri Ara Ayvazyanın Bakının razılığı olmadan Xankəndinə gəlməsinə və orada hansısa “ikitərəfli anlaşma” imzalamasına sərt xəbərdarlıq etmişdi. O vaxtdan Ermənistanın rəhbər şəxslərindən heç kəs, həmçinin yeni xarici işlər naziri izinsiz Qarabağa keçməyə cürət etməyib.

Başqa cür ola bilməz. Ermənistan rəsmiləri, nəhayət, qonşularla rəftarı, beynəlxalq hüquqa hörmət etməyi öyrənməlidirlər. Əks təqdirdə, məğlub ölkə düşdüyü sosial-iqtisadi və siyasi böhran bataqlığından heç vaxt çıxmayacaq, öz durumunu daha da qəlizləşdirəcək, “Dəmir yumruq”un daha bir ağır zərbəsini yeyəcək. Həmin zərbə isə Ermənistanın dövlətçiliyini bünövrəsinə qədər sarsıda bilər.

O da maraqlıdır ki, məhz bu ərəfədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov “status” məsələsini süni surətdə gündəmdə saxlamaqla Bakıya təzyiq göstərməyə çalışan ATƏT-in faktiki olaraq fəaliyyətini dayandırmış Minsk qrupunun Rusiyadan olan yeni həmsədrini qəbul edib. Rəsmi məlumata görə, nazir İqor Xovayevi təyinatı münasibətilə təbrik edib, ona bölgədəki cari vəziyyət, Azərbaycanın münaqişə sonrası mərhələdə həyata keçirdiyi tədbirlər, işğal faktorunun aradan qaldırılması ilə Ermənistanla beynəlxalq hüquq prinsipləri əsasında münasibətlərin normallaşdırılmasının mümkünlüyü, habelə qarşı tərəfin sərgilədiyi revanşist mövqeyin heç bir perspektivinin olmaması, tərəflərin yaranmış əməkdaşlıq imkanlarından faydalanmasının vacibliyi barədə məlumat verib.

İqor Xovayev isə səfərinin yalnız tanışlıq xarakteri daşıdığını söyləyib. Tərəflər üçtərəfli Bəyanatdan irəli gələn müddəaların həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Göründüyü kimi, rəsmi Bakı diqqəti növbəti dəfə bölgədə ədalətli və daimi sülhün əsas şərtlərinə yönəldib. Rusiyanı bu yöndə nəhayət, “həmsədr” kimi real töhfələr verməyə çağırıb. Məlumdur ki, Azərbaycan cəmiyyətində Rusiya sülhməramlılarına etimad problemi gündəmdə qalmaqda davam edir. Söhbət xüsusən də Qarabağda müvəqqəti yerləşən rus sülhməramlıların separatçıları şirnikləndirən hərəkətlərindən gedir. Moskva gerçəkdən də regionda beynəlxalq hüquqla bir çərçivəyə sığmayan özfəaliyyətə son qoymalı, separatçılara öz yerini göstərməli, onların tərk-silah olunmasına dəstək verməlidir...

Azərbaycanın Ermənistandan tələbləri qətidir. Ermənistanın isə Azərbaycan və Türkiyənin ərazi bütövlüyünün tanınması məsələsində atacağı müsbət addımın əvəzi ona “altılıq platforması”na qoşulmaq imkanı verəcək. Bu əməkdaşlıqdan və regionda yaranan yeni fürsətlərdən ən çox Ermənistan özü qazanacaq.

Bu, bir reallıqdır ki, Ermənistanın müharibəni davam etdirə biləcək gücü yoxdur və xoş gələcəyi görünmür. Erməni toplumu Qərbə inteqrasiya arzulayır və bunun yolunun da yalnız bölgə ölkələri ilə əməkdaşlıqdan keçdiyinin fərqindədir. Paşinyanın Türkiyə, Rusiya və Azərbaycanla bağlı verdiyi açıqlamalar əslində daxili auditoriyanı rahatlaşdırmaq və yeni xarici siyasətində ictimaiyyətin dəstəyini almaq məqsədini güdür. Nikol Paşinyanın son Türkiyə açıqlamasının da hədəfi budur. Bu açıqlama onu göstərir ki, artıq Paşinyan da Türkiyəni bölgədə konstruktiv tarazlaşdırıcı faktor olaraq görməyə başlayıb.

Bütün bunlarla bərabər, ermənilər bir ildir ki, yasdadırlar, onlar Azərbaycan Ordusunun məhv etdiyi “miatsumun” bir illik yas mərasimini keçirməyə hazırlaşırlar. Saxta “30 illik müstəqillik” isə gorbagor oldu və tarixin zibilliyinə atıldı.

***Vəli İlyasov***

## Movsesdən Nikola uğursuz təklif...




...Deməli, Azərbaycanın Ermənistanla sülh müqaviləsini imzalamaq barədə təkliflərini erməni tərəfi neçə müddət idi ki, lal sükutla qarşılayırdı. Təbii ki, ermənilər yaxşı anlayırdılar ki, rusların vasitəçiliyi ilə olsa da, bu danışıqların nəticəsi onlara yaxşı heç nə vəd etmir. Ona görə də, hər yerdən əlləri üzülən ermənilər indi də yapışıblar Minsk qrupunun quyruğundan. Hətta o gün vaxtın ermənilər üçün işləmədiyini anlamağa başlayan baş nazir Nikol Paşinyan da Azərbaycan tərəfi ilə Minsk Qrupunun təklif etdiyi qaydada birbaşa danışıqlara hazır olduğunu bildirib. Təbii ki, Azərbaycan Prezidenti də belə danışıqlara həmişə hazır olduğunu bildirdi.

Bəli, hazırda isə Nikol gələcək ehtimallı görüşlə bağlı “yaxın və uzaq ətrafından” məsləhətlər almaqdadır.

Deməli, bu arada Nikola dəyərli məsləhətlərdən birini də, Annaya görə hələ də Nikolla küsülü olan Baş Qərargahın keçmiş rəhbəri Movses Akopyan vermək istəyib. Özü də məsləhət, nə məsləhət...

Beləliklə, delimitasiya və demarkasiya ilə bağlı bəyanatlar hələ prosesin başlanğıcı oilmadığını deyən, “yarıtmaz general” (...bir dənə Annanın da öhdəsindən gələ bilmədiyinə görə, bu adı Movsesə demək düşür -A.B.) bunun üçün diplomatik münasibətlərə əlavə olaraq, iki ölkə bir -birinin sərhədlərini tanımalı, sənəd razılaşdırmalı, sonra iki ölkə arasında razılaşdırılmış xəritələr üzrə komissiya yaradılmalı və yalnız bundan sonra delimitasiya və demarkasiya edilə bilər.

Əla, amma ən əlası onun hələ də Annaya görə küsülü qaldığı Nikola ünvanladığı sonrakı mesaj-məsləhətdir. Deməli, Movses Akopyan deyir ki, əgər Nikol Azərbaycan Prezidenti ilə normal danışıqlar apara bilsə, o “artsaxı” itirmədən, “artsaxı” Azərbaycanın bir hissəsi kimi tanımadan, Azərbaycanın bütövlüyü tanına bilər(?).

Bax, bu lap əla, ara, bu nətəhər olur ə? Amma...yenə də “halal olsun”, siyasətçi də olsan, gərək beləsindən olasan. O dəqiqə görünür ki, çürümək ehtimalı olmayan əsl yetişmiş siyasətçidir. Amma... Movses bir şeyi unudur. Nəyi?

10 noyabr bəyanatının imzalanmasından sonra Azərbaycan Prezidentinin söylədiyi “status cəhənnəmə getdi” sözlərini...

Ona görə də, Movses Akopyan anlamayırsa, anlamalıdır ki, Azərbaycan Prezidenti bu sözləri elə-belə deməyib və təbii ki, bu qətiyyətin arxasında müəyyən razılaşmalar dayanır. Yəqin Movsesdən fərqli olaraq, Nikol bunu yaxşı anlayır.

***Ağasəf***

## “Məxməri” inqilabla bağlı miflər əriyir?..



Əvvəla deyim ki, bu qədər naşükürlük etməyə dəyməz. Dünənə qədər, özünüz, yəni siz ermənilər 2018-inqilabını nə bilim gah “məxməri”, gah da ki “güllü” inqilab adlandırırdınız. İndi də deyirsiniz ki, bu inqilab nə məxməri, nə də ki güllü inqilab olub. Dediyinizdən belə başa düşülür ki, bu inqilab “məhz ermənilər üçün hazırlanmış” əsl “şübhəli” inqilab olub ki, onun da meyvələri, yəni Nikolun kadroları “gül kimi” ölkəni tərəqqidən salmağa çalışırlar.

Ermənistanın Statistika Komitəsindən faktlar da gətirirsiniz ki, “şübhəli” inqilabdan sonra ərzaq təhlükəsizliyi və ya qida məhsullarının özünü təmin etmə səviyyəsi ciddi şəkildə pisləşib.

...Nə tez “pisinizi” vurdu? Sual olunur, məgər siz Nikoldan və ya onun sizlərə iqtisadiyyat naziri təyin etdiyi Vahan Kerobyandan əvvəl hər gün ləbləbi-kişmiş yeyirdiz? Deyim ki, adam qaralamaqda mahirsiz.

İndi də başlamısınız ki, inqilabdan sonra Ermənistanda ən əhəmiyyətli strateji bitkilərin əkin sahələrinin, mal-qaranın sayı azalıb. Hətta dediklərinizə əsas da gətirirsiniz ki, əvvəllər, yəni “şübhəli” inqilabdan qabaq Ermənistanda 242 min hektardan çox olan əkin sahəsi olub ki, bu da azala-azala bu gün 223 min hektara çatıb. Deyirsiz ki, 223 min hektar keçən ilin göstəricisidir, bu ilki nə qədər olacaq, hələ məlum deyil.

Son günlər statistikaya önəm verməyə başlamısınız, Paşinyan komandasının əvvəlki hakimiyyətin əldə etdiyi göstəricilərin çoxunu korlaya biləcəyini deyirsiniz. Yenə də, əsas kimi, inqilabdan sonra ölkədəki taxıl və paxlalı bitkilərin əkin sahəsinin 130 min hektardan 122 min hektara düşdüyünü deyirsiniz. Hətta təəccüblənirsiniz də, deyirsiniz ki, “inqilabçı” hökumətin gəlişindən sonra bəzi vacib məhsul növlərində əldə edilən tam özünü təmin etmə də yox olub. Yəni indi ermənilər hətta yumurtanı da xaricdən almağa başlayırlar.

...Amma belə görünür ki, bu hələ başlanğıcdır. Sizcə, bəs, necə olmalıydı? Gündə filan qədər erməni Ermənistanı birdəfəlik olaraq tərk edib, hələ filan qədəri də ölkədən qaçmaq üçün növbə gözləyirsə, ölkənin hansı “tərəqqisindən” danışmaq olar?

...Təbii ki, “özü yıxılan ağlamaz”, bir də niyə anlamaq istəmirsiniz ki, indi “sizin yığdığınız vaxtilə əkdiklərinizin bəhrəsidir”.

***Ağasəf Babayev***

# Provizor, dovşan qovan, hətta qovulan, nəhayət ki, Əli Əliyev...

**Son günlər özünü cəmiyyətə Vətəndaş Inkişaf Partiyasının sədri kimi sırımağa çalışan qondama siyasətçi Əli Əliyev Yeni Azərbaycan Partiyasının ünvanına təhqir, həqarət yağdırmaqla məşğuldur. Başadüşüləndir, YAP iqtidar partiyasıdır, dövlətin kadr bazasıdır, mühüm siyasi qərarları qəbul və icra edir. O baxımdan tənqidə məruz qala bilər, amma təhqirə, həqarətə deyil. Amma görünür özünə siyasətçi deyən, populizm içində boğulan Əli Əliyev bu reallığı hələ də qanmayıb...**

Bu, həmin Əli Əliyevdir ki, siyasətə məhz AMİP lideri Etibar Məmmədovun qohumu olduğu üçün gəlib. "Siyasətçi" olaraq da cəmi 3 dəfə gündəmə gəlib. İlk gündəmə gəldiyi hadisə onun heç bir haqqı-hüququ olmadan Xalq rəssamı, professor Kamil Əliyevin mirasına iddia irəli sürməsi ilə bağlı olub. Növbəti gündəmə gəldiyi məsələ isə 3 uşaqla qapı arxasında qoyduğu birinci həyat yoldaşının AMİP lideri Etibar Məmmədova onun məişət pozğunluğu və mənəviyyatsızlığı barədə müraciət etməsilə baş tutub. Nəhayət, sonuncu dəfə mətbuatın diqqətinə fövqəladə qurultay ilə AMİP sədrliyindən qovulması ilə gəlib...

Baxın, "siyasətçi" kimi karyerasında ancaq bu hadisələrlə yadda qalan birisi hansı üzlə Yeni Azərbaycan Partiyasının ünvanına söz deyir? Əli Əliyev hər gün "Osmanqızı", "Bumeranq" kimi youtube kanallarında Əli Kərimlisayağı monoloq söyləyəndə bilmirdimi ki, bir gün ona bu sual veriləl bilər?

Özünə siyasətçi deyən birisi gərək hansısa ictimai faydalı, dövlət əhəmiyyətli bir fəaliyyəti ilə yadda qalsın. Bəs, Əli Əliyev hansı fəaliyyəti ilə yadda qalıb? Bəlkə, meşədə dovşan qovmaqla? Yaxud, sirkə turşusundan zəhərlənmiş dovşanın qaraciyərinin və böyrəyinin müalicəsi ilə? Ümumiyyətlə, dünyada dovşanların sirkə turşusundan zəhərlənməsi halı milyonda neçə dəfə baş verib ki, Əli Əliyevin də işi, ixtisası faydalı olsun?



b.e.n., ass. Əliyev Ə.N.

| Qısa məlumat | | |
|---|---|---|
| 1 | Ad, soyad, ata adı | Əliyev Əli Nadir oğlu |
| 2 | İxtisas | Provizor |
| 3 | Vəzifə | Assistent |
| 4 | Kafedra | Biokimya kafedrası |

Təhsili

| № | Təhsil müddəti | Ixtisası | Təhsil müəssisəsinin adı | Təhsil müəssisəsinin ünvanı |
|---|---|---|---|---|
| 1 | 1986-1991 | provizor | Azərbaycan Tibb Universiteti, əczaçılıq fakültəsi | Bakı şəhəri |

| | | | |
|---|---|---|---|
| 7 | Sirkə turşusu ilə zəhərlənmiş dovşanların qaraciyərində lipid peroksidasiya prosesinin və antioksidant ferment sis-teminin pozğunluqları. | Əfəndiyev A.M. Quliyev M.R. | ATU-nun 1993-cü ilin yekunu konf. tezisləri. Bakı, 1994, s. 82. |
| 8 | Sirkə turşusu ilə zəhərlənmiş dovşanların böyrəklərində antioksidant ferment sisteminin və lipid peroksidləşməsi prosesinin vəziyyəti. | Axundov M.A. Quliyev M.R. | Az. Fiziol. Cəmiyyətinin I qurultayının materialları. Bakı, 1994, s.10. |
| 9 | Sirkə turşusu ilə zəhərlənmiş dovşanların qaraciyərində lipid perok- | Əfəndiyev A.M. | Akad.Topçubaşovun 100-il-liyinə ... f. tezislə-ri. |

National İndependence Party of Azerbaijan
4, M.Kasimov str. Baku Azerbaijan Republic.
Tel: (99412) 498 00 98

Azərbaycan Milli İstiqlal Partiyası
Bakı şəhəri, M.Qasımov küçəsi,4
Tel: (99412) 498 00 98

MİLLİ İSTİQLAL PARTİYASI
AMİP FÖVQƏLADƏ QURULTAYININ (KONFRANSININ)
QƏRARI
(Protokoldan çıxarış)

Bakı şəhəri 22 yanvar 2006-cı il

Qərar:
1. AMİP Nizamnaməsinin 64-cü maddəsinin tələblərinə müvafiq olaraq AMİP Sədri Əli Əliyevə etimadsızlıq göstərilsin.
2. AMİP-in son Qurultayının 2003-cü il tarixdə keçirildiyini nəzərə alaraq Nizamnamənin 44-cü maddəsinin tələblərinə müvafiq olaraq 45 gün ərzində AMİP-in növbəti Qurultayı çağırılsın.
3. Növbəti Qurultaya qədər AMİP sədrinin səlahiyyətlərinin icrası AMİP Mərkəzi Şura sədri Ayaz Rüstəmova, Baş katibin səlahiyyətlərinin icrası isə AMİP katibi Fuad Muxtarova həvalə edilsin.

Qurultayın sədri: A.Rüstəmov
Kati... A.Əliyev

ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ VƏ İZAHLI QEYDLƏR
31 dekabr 2017-ci il tarixə
VÖEN: 1401207521
Müəssisə, təşkilat: "Vətəndaş və İnkişaf" Partiyası
Sahə (fəaliyyət növü): Digər qrupa daxil edilməyən sair siyasi təşkilatların fəaliyyəti
Mülkiyyətin növü (hüquqi forma): Xüsusi
Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, S.Bədəlbəyli küçəsi 69
1. "Vətəndaş və İnkişaf" Partiyası haqqında:
Təşkilat Ədliyyə Nazirliyindən 10.08.2007-ci ildə qeydiyyatdan keçmiş və o vaxtdan da fəaliyyətə başlamışdır. Hesabat dövründə partiyada fəaliyyət göstərmiş işçilərin orta sayı 8 nəfər olmuşdur.İşçilər ictimai əsaslarla fəaliyyət göstərmişlər.
Missiya və məqsədlər: "Vətəndaş və İnkişaf" Partiyası...

VİP adlı qondarma partiyasının qeydiyyatını ləğv etdirsə, yaxşıdır. Çünki hər kəs onun partiya idarəçiliyinə də gülür. Kimə desən ki, partiyanın illik gəliri cəmi 200 manatdır, gülər. Əgər MSK-ya təqdim edilən sənəddəki qədər gəlirin varsa və o da üzvlük haqqından formalaşmırsa, bircə məntiq hakim olaraq diqqətə gəlir: VİP-in 1 nəfər də olsun üzvü yoxdur və Əli Əliyev tək möhürü və qovluğu olan yalqız "partiya sədridir"...

Əlqərəz, demək ki, Əli Əliyev nəinki siyasətçi deyil, həm də ixtisası, peşəsi yararlı olmayan birisidir. Beləliklə də, Əli Əliyevin özü cəmiyyət üçün yararlı deyil. Demək ki, onun siyasətlə məşğul olması da heç kəsə faydalı və maraqlı deyil. O zaman Əli Əliyev üçün bir çıxış yolu qalır: populizmdən, boş-boş danışmaqdan, sayıqlamaqdan əl çəkib, baytarlıqla, ya da əczaçılıqla məşğul olmaq...

***Ramil Vaqifoğlu***

# Azərbaycan Ordusunu gücləndirir, ermənilərsə...



**İnanın ki, bu ermənilər danışıb Nikolu daha da "aşağılamaq" üçün artıq mövzu tapmırlar. Mövzu tapanlar da, boy sırası dayanıb döşəyirlər "məzlum" Nikolun qabırğasına. Yadınızda olar, ermənilərin bir siyasi strateqi var- Armen Badalyan...o gün qayıdıb deyir ki, guya "artsax" artıq Nikolu maraqlandırıb eləmir.**

Burada erməni siyasi strateqə Nikolun başqa "müsbət əməllərini" xatırladanda da deyir ki, yenə də guya o bunu, sadəcə olaraq, hökumətin "Soros qanadı"nı qane etmək üçün edir.

Siz bu Armen Badalyandakı "qırmızılığa" bir baxın... daha sonra da deyir ki, Azərbaycan və Türkiyə 44 günlük müharibədən sonra vaxtaşırı birgə hərbi təlimlər keçirir, yeni növ silahlar alır, nə bilim daha nələr edir...

Amma...Nikol nə təlim keçirir, nə də ki, yeni bir silah alır. Aldığı da rusların sırımağa yer axtardıqları "metallomdur". İnanın adam beləsinə nəsə bir ad qoymaqda da çətinlik çəkir. Yox, yox..."naşükür" adı da buna yaramır.

Belə çıxır ki, bu gün Armen kimilərin "ağızları hələlik isti yerdədir". Yoxsa, "naşükürlük" edib... "bu gün Ermənistan ordusunun ən yüksək zirvədə olduğunu görmürük" deməzdi. Bir də bu erməni strateqdən soruşan gərək, məgər erməni ordusu nə vaxtsa hansısa bir zirvədə olubmu? Axı, erməni ordusu "araba kölgəsində yatan köpək kimi" həmişə onun bunun, çox vaxt da elə rusun kölgəsinə sığınmıyıbmı? İndi də rus kölgəsi "pisini vurub deyə" təzə "fransız kölgəsinə minnətçi düşməmisinizmi?".

İndi sən təzə müdafiə naziriniz Arşak Karapetyanın özündən "qəhrəman" yaratmağa çalışdığını bildirirsın. Ermənistan sərhədini keçməyə çalışan Azərbaycan hərbçilərinin məhv edilməsini dair əmr etdiyini deyirsən. Sonra da bildirirsən ki, Azərbaycan həqiqətən ordusunu hərbi təlimlərlə gücləndirir, amma Ermənistan sadəcə olaraq piar edir, yeni başqa heç nə yoxdur.

Yeri gəlmişkən xatırladım ki, sentyabrın 12-nə qədər davam edəcək Türkiyə-Azərbaycan birgə təlimləri Bakıda başlayıb. Təlimlər iki ölkənin ordu hissələrinin hərbi əməliyyatlar zamanı qarşılıqlı fəaliyyətini yaxşılaşdırmaq məqsədi daşıyır. Ona görə də, ermənilərin bu təlimlərdən qorxmaq üçün heç bir əsas yoxdur.

***Ağasəf Babayev***

# Politoloq: "Ermənistanın rəsmən Azərbaycan torpaqlarına iddiası olmayıb"

**"İlkin şərtlər irəli sürmədən Ermənistanın dəhlizlər və onların statusu, habelə nəqliyyat-kommunikasiya xətlərinin açılacağı ilə bağlı danışıqlara getməsi mümkün görünür. Paşinyanla yanaşı, onun komandasında təmsil olunan bir sıra yüksək çinli məmurların, nazirlərin verdikləri açıqlamalar da bunu təsdiq edir". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.**



Onun sözlərinə görə, Ermənistandakı son dərəcə ağır durum, inflyasiya, gəlirlərin əldə edilməsindəki qütbləşmənin artması, korrupsiyaya qarşı gerçək və səmərəli mübarizənin aparılmaması, diaspora tərəfindən edilən dəstəyin müəyyən dərəcədə azalması, ölkədə miqrant axını, nəhayət Azərbaycanla 44 günlük savaşda məğlubiyyət Ermənistan cəmiyyətində rəsmi İrəvanın danışıqlara getməyə sövq edən amillərə aid edilə bilər: "Azərbaycanla uğurlu danışıqlar Ermənistan iqtisadiyyatının blokadadan çıxmasında, habelə Ermənistanın bölgə ilə bağlı geosiyasi mahiyyət kəsb edən layihələrə qoşulmasına imkan yarada bilər ki, bunun da Ermənistan üçün müstəsna əhəmiyyəti var. Bundan əlavə danışıqlara başlamaqla Ermənistan sülhə, sabitliyə və əməkdaşlığa saygı ilə yanaşan dövlət imicinin də formalaşdırılmasının qayğısına qalır. Nəhayət Ermənistanın uzun müddət qeyri-konstruktiv mövqe sərgiləməsi onun müttəfiqi olan Rusiyanı da qane etmir. Rusiyanın danışıqlardakı moderator statusuna yetərincə ziyan vurur. Ən nəhayət "Türkiyədən müsbət siqnallar almışıq, onlara cavab verəcəyik" deyən Paşinyanın Türkiyə ilə münasibətləri də normallaşdırmağa ümidli olduğu istisna deyil".

E.Manafov bildirib ki, Qarabağa gəlincə Ermənistanın rəsmən Azərbaycan torpaqlarına iddiası olmayıb, hətta 2010-cu ildə qəbul olunmuş sənədə görə Ermənistan parlamenti Qarabağı müstəqil dövlət kimi tanımayıb: "Odur ki, Ermənistanın rəsmən Azərbaycan torpaqlarına olan iddialarından imtina edəcəyi ilə bağlı mövqe bildirəcəyi gözlənilən deyil. Digər tərəfdən Dağlıq Qarabağ bölgədə geosiyasi maraqları olan beynəlxalq güclərin inhisarında olan orojedir, Ermənistan burada sadəcə ötürücü qayış rolunda çıxış edir, odur ki, onun Dağlıq Qarabağla bağlı verəcəyi qərar ona himayədarlıq edən qüvvələrin ismarıcından asılı olaraq qəbul edilə bilər. Bu layihənin qarşısını almaq üçün isə Azərbaycanın istinad edəcəyi amillər beynəlxalq hüquq, BMT TŞ nin münaqişə ilə bağlı qəbul etdiyi qətnamələr, tarixi ədalət, Ali Baş Komandanın siyasi uzaqgörənliyi və iradəsi, xalqın və ordunun birliyi, vəhdətidir".

***Gülyana***

# Sumqayıt müasirləşmə və inkişaf yolunda

## *Prezident İlham Əliyev: “Sumqayıt müasir, dünya səviyyəli sənaye mərkəzinə çevrilib”*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*QEYD: Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

Bu gün Azərbaycanın bütün bölgələri, şəhər və kəndləri, qəsəbələri kimi Sumqayıt şəhəri də yeni inkişaf dövrünü yaşayır. Burada aparılan abadlıq-quruculuq işləri şəhərin gözəlliyinə daha bir rəng də əlavə edib. Dövlətimiz tərəfindən inkişafa və quruculuğa verilən töhfələr Sumqayıtın inkişafında da müstəsna əhəmiyyət daşıyır. Azərbaycanın, eləcə də Cənubi Qafqazın mühüm sənaye mərkəzlərindən biri kimi tanınan Sumqayıtın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Şəhərin sosial-iqtisadi, o cümlədən, elminin, təhsilinin, mədəniyyətinin inkişafına Ulu Öndər Heydər Əliyev böyük töhfələr vermişdir. Ümummilli Liderin bu sənaye şəhərinə hər səfəri Sumqayıtın tarixində önəmli rol oynamışdır. Ulu Öndərin sovet hakimiyyəti illərində ölkəyə rəhbərlik etdiyi illərdə bu şəhərdə yüngül sənaye müəssisələri və sənayenin digər sahələri inkişaf etdirildi, yeni istehsal sahələri istismara verildi. Ötən əsrin 70-ci illərinin əvvəllərində əhalinin məişət kimyası mallarına olan tələbatı ödəmək məqsədilə Zaqafqaziyada ilk dəfə olaraq Sumqayıt Məişət Kimyası Zavodu yaradıldı, “Superfosfat” zavodunda yüksək texnologiya əsasında inşa edilərək dənəvər superfosfat gübrəsi istehsalatı işə salındı. 1970-73-cü illərdə “Üzvi sintez” zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexləri fəaliyyətə başladı. Daha sonra Kompressorlar zavodu, Üst trikotaj və Xovlu İplik fabrikləri, Süd və Yeyinti məhsulları kombinatları istifadəyə verildi. Bir-birinin ardınca istifadəyə verilən müəssisələr bu gənc şəhərin inkişafında mühüm rol oynadı.

### Dövlət başçısının Sumqayıta hər səfəri şəhərin inkişaf və yüksəlişinə töhfə olur

Bu gün Ulu Öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi islahatlar nəticəsində Sumqayıt yeni bir dövrünü yaşayır. Prezident İlham Əliyevin apardığı iqtisadi və sosial siyasəti nəticəsində həyata keçirilən dövlət proqramlarının uğurla icrası Sumqayıt şəhərinin də inkişafında mühüm rol oynadı. Sumqayıt Texnologiyalar Parkının, Sumqayıt Kimya Parkının yaradılması ölkə başçısının şəhərdə sənayenin inkişafına göstərdiyi böyük dəstəyin təzahürüdür. Prezident İlham Əliyevin hər dəfə Sumqayıta səfəri şəhərin inkişaf və yüksəlişinə töhfəsini verir. Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi, Sumqayıt tarixən kimyaçılar şəhəri kimi salınmışdır, Sovet İttifaqının kimya sənayesinin mərkəzi olmuşdur: “Bu gün isə Sumqayıt müasir, dünya səviyyəli sənaye mərkəzinə çevrilib. Qarşıya məhz belə vəzifə qoyulub ki, Sumqayıtda ən müasir sənaye müəssisələri yaradılmalıdır. Bu, bizim ümumi sənaye potensialımızı gücləndirəcək, minlərlə, on minlərlə yeni iş yeri yaradacaq. Mən çox şadam ki, bu gün Sumqayıtda artıq icra edilmiş və icrada olan sahələr bu məqsədi təmin edib”.

Son illərdə gücü 525 MVt olan Elektrik stansiyası, “Sumqayıt-3” yarımstansiyası tikilmiş, “Azərkimya” İB-nin müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin “Azgüntex” Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan “Sağlam qida” Aqrar-Sənaye Kompleksi, “Azərsun Holdinq”in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, “Gilan” Tekstil Parkı, Mis Emalı Zavodu, “Alyans Tekstil” MMC-nin uniformalar istehsalı fabriki və s. müəssisələr yaradılmışdır. Bu siyahını görülən işlərin məntiqi olaraq artırmaq olar. Bu və ya digər müəssisələrin istifadəyə verilməsi şəhərin inkişafının göstəriciləridir.

Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinə səfəri yeni, mühüm hadisələrlə zəngindir. Belə ki, Enerjisistemin Reabilitasiya Proqramı çərçivəsində inşa olunan “Sumqayıt” Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının Cənab İlham Əliyevin iştirakı ilə açılışı oldu. Vurğulamaq yerinə düşər ki, dövlət başçısının tapşırığına əsasən, 2018-ci ilin sonundan Enerjisistemin Reabilitasiya Proqramının qəbul edilmiş və proqram çərçivəsində 12 elektrik stansiyasında və 23 yarımstansiyada yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib.

Müasir görkəmi ilə seçilən Sumqayıt şəhərinə dövlət başçısının səfəri çərçivəsində Sumqayıt Məhkəmə Kompleksinin açılışı olub. Kompleks Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə həyata keçirdiyi “Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu” layihəsi çərçivəsində inşa olunub. Öz funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni, o cümlədən Sumqayıt apellyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir.












### Sumqayıt müasirləşən və inkişaf edən şəhərə çevrilib

Azərbaycan Prezidenti İlham Əliyevin ölkə həyatının bütün sahələrinə olduğu kimi, təhsil sektoruna da göstərdiyi diqqət və qayğı nəticəsində bu sahədə islahatlar daha da dərinləşib. Təhsilin keyfiyyətinin yüksəldilməsində məktəb infrastrukturunun inkişafı da böyük əhəmiyyət kəsb edir. Son 17 ildə 3200-dən çox məktəb inşa edilib, əsalı təmir olunub, yeni tədris korpusları tikilib və ya tam yenilənib. Əlbəttə ki, ümumtəhsil məktəblərinin təmir-tikinti işləri davamlı xarakter alıb və bu, təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Ölkəmizin hər bir yerində müasir tipli təhsil müəssisələri şagirdlərin ixtiyarına verilir. Bu, Sumqayıt şəhərindən də yan keçməyib. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən yeni inşa olunan 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə də tanış olub. Təhsil müəssisəsində 42 sinif otağı, fənn kabinələri, laboratoriyalar, əmək və hərbi təlim otaqları, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə də yaradılan şərait Azərbaycanda təhsil sahəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının əyani göstəricisidir. Əlbəttə ki, yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində aparılan işlərin tərkib hissəsidir.

Dövlət başçısının Sumqayıta səfəri zamanı Sumqayıt şəhərində güzəştli mənzil layihəsi çərçivəsində növbəti yaşayış kompleksinin də təməli qoyulub. Burada doqquz, on iki və on altı mərtəbəli 11 bina inşa olunacaq. Mənzillərin ümumi sayı isə 466-dır. Onlar studio tipli, 2, 3 və 4 otaqlı olacaq. Ərazidə, həmçinin 90 yerlik uşaq bağçası da inşa ediləcək. Vətəndaşlara güzəştli şərtlərlə təklif edilən bütün mənzillər tam təmirli olacaq və mənzillər, həmçinin mətbəx mebeli, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacı ilə təmin ediləcəkdir. Əlbəttə ki, bu gün pandemiya dövründə yaşadığımız bir zamanda sosial layihələr uğurla icra olunur. Bu, dövlət başçısının sosial məsələlərinin həlli istiqamətində həyata keçirdiyi uğurlu siyasətin məntiqi davamıdır.Prezident İlham Əliyevin tapşırığı və qayğısı ilə şəhərdə görülən kompleks abadlıq və quruculuq işləri, yeni və möhtəşəm infrastruktur layihələrinin həyata keçirilməsi sumqayıtda yeni ab-hava yaradıb. Son illərdə Sumqayıtda onlarca yeni istehsal müəssisələrinin yaradılması, mədəniyyət və elm müəssisələrini fəaliyyətə başlaması şəhərin uğurlu inkişafına yollar açıb və müasirləşən, inkişaf edən şəhərə çevirib.

**Nəzakət ƏLƏDDİNQIZI**

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

QARABAĞ AZƏRBAYCANDIR!

7 sentyabr


## “Euro-football” saytı: Ermәni nağılının sәrt sonu çatıb

**Almaniyanın Ştutqart şəhərində keçirilən futbol üzrə dünya çempionatının seçmə turnirinin beşinci turunun “J” qrupunda AFR yığması tərəfindən Ermənistan yığmasına endirilən dağıdıcı məğlubiyyəti “Euro-football” idman saytı “Erməni nağılının sərt sonu” adlandırıb.**

AZƏRTAC xəbər verir ki, ermənilər meydandan 0:6 hesablı məğlubiyyətlə ayrılıblar. Qolları Qnabri Serj (6-cı və 15-ci dəqiqələr), Roys Marko (35-ci dəqiqə), Verner Timo (45-ci dəqiqə), Hoffman Yonas (52-ci dəqiqə) və Adeyemi Karim (90-cı dəqiqə) vurublar.

Sayt istehza ilə qeyd edir ki, bununla belə son illər Almaniya yığması, necə deyərlər, təəssürat yaratmır. Məqalədə vurğulanır ki, erməni müdafiə xətti “alman maşını”nın təzyiqi altında tez sıxılıb. Materialın müəllifi Kirill İvantsov Almaniya yığmasının qələbəsini “tennis” qələbəsi adlandırıb.




## 60.000 il əvvələ aid qalıqlar...



Katalan İnsan Paleoekologiyası və Sosial Təkamül İnstitutu (IPHES) verdiyi açıqlamada, Barselona yaxınlığındakı Cabellades bölgəsindəki Abrik Romani adlı yaşayış yerində davam edən qazıntılar zamanı Neandertal maral ovçularının 60.000 il əvvələ aid qalıqlarının aşkarlandığı deyilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu bölgədə yaşadığı bilinən Neandertal cəmiyyətinin qalıqlarının, Rovira Virgili Universitetində tarixdən əvvəlki Araşdırmalar Departamentinin rəhbərliyi altında təxminən 20 arxeoloqdan ibarət qrup tərəfindən aparılan qazıntılar zamanı ortaya çıxarıldığı qeyd edilib. Neandertalların yem axtaran maral ovçuları olduğu bildirilib və yediklərinin qalıqları da qazıntı zamanı sənədləşdirilib. Arxeoloqlar, ən az 3 maralın qalıqlarının tapıldığını və kəllə sümüklərinin eyni bir yerə yığıldığını ve bunun xüsusi bir vəziyyətin göstəricisi olduğunu deyib. Qazıntı zamanı çaxmaq daşından, əhəngdən və qumdan hazırlanmış çoxlu daş alətlərin tapıldığı da bildirilib.

***Turqay Musayev***

## Təyyarədə kabus! - ŞOK GÖRÜNTÜLƏR

Təyyarəyə minən tarantula sərnişinlərdə böyük qorxu yaradıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, sərnişinlərdən biri tarantuladan cəsur adamın sayəsində qurtulduqlarını yazıb. Sərnişinlərdən biri, “TikTok” hesabına yüklədiyi videoda cəsur adam sayəsində tarantuladan xilas olduqlarını yazıb. Video 3 milyon dəfə izlənilib və insanları qorxudub. Çünki xeyli sayda insanın “hörümçək fobiyası” var.



### Ən Pis Kabus

Videodakı sərnişinlər və videonu görən milyonlarla insan da qorxularını dilə gətirib.

Videoda qışqıran insanlar olsa da, şərhlərdə bunun “ən pis kabusu” olduğunu söyləyənlər də var. “TikTok” istifadəçisi @directorbrazil tərəfindən paylaşılan video qısa zamanda milyonlara izləyicilərə çatmağı bacarıb.

Bir şərhdə “Təyyarəyə minmək, uçmaq və hörümçəklər mənim ən böyük qorxumdur”, digər şərhdə isə uzun müddət təyyarəyə minməyəcəyi deyilir. “İndi qəzaya uğramaq və ölmək qorxusundan başqa təyyarəmdəki tarantulalardan narahat olmalıyam” dedi. Hörümçəyin taleyi bilinməsə də, sanki “qısa müddətli” bir qorxuya səbəb olur.

***Ziya Hikmətoğlu***

## 620 uşaqın ailəsi



İngiltərədə 56 yaşlı cütlük həyatlarını kimsəsiz uşaqlara həsr edib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, 620 uşağın himayədar ailəsi olan cütlük təqaüdə çıxıb. İngiltərədə Pauline (81) və Roger Fitter (86) cütlüyü 56 il ərzində 620 uşaq böyüdüblər. Beş övladı da olan cütlük, dörd otaqlı evlərində bir anda 11 uşağa qədər himayədar ailə olublar. Cütlüyə görə, bu qədər uşaqla məşğul olmağın ən yaxşı yolu, hamısına bərabər münasibət göstərməkdir. Evdə paltar və yemək ayrılmasına icazə vermədiklərini söyləyirlər. Bu cütlük təqaüdə çıxıb. Cütlük qayğı göstərdikləri bütün uşaqların adlarını xatırlayır. Bu şəkildə cütlüyün xatirələrinin güclü olduğunu bildirən böyük bir ailə albomu var. Fitter cütlüyü deyir: “Bağdakı oyun meydançasının sakitliyinə hələ alışmamışıq”.

***Ziya Hikmətoğlu***

## ELAN

Bakı şəhəri, Abşeron rayonu Masazır qəsəbəsi Qurtuluş-93 yaşayış kompleksində Bağçalı Evlər MTK tərəfindən Şıxəliyeva Kifayət Cəlil qızının adına verilmiş maliyyə arayışı və müqavilə itdiyi üçün etibarsız sayılır.

* * *

1998-ci ildə, Müdafiə Nazirliyi tərəfindən Qurbanov Mehman Aftandil oğluna verilmiş veteranlıq vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## İki ildə 30 milyon dollar



İngilis aktrisa Phoebe Waller-Bridge son iki ildə 30 milyon dollar qazanıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, “Fleabag” serialı ilə məşhurlaşan aktyorun həftəlik gəliri indi 294 min dollardır.

Eyni zamanda ssenarist olan ulduz, 2016-cı ildə başlayan serialla məşhurlaşmadan əvvəl işsiz idi. 2019-cu ildə üç Emmi mükafatını qazandıqdan sonra sərvət qazandı. Serial xaricində etdiyi müqavilələr sayəsində bir sərvət qazanıb.

***Ayşən Vəli***

## Başsağlığı

SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev kollektiv adından tanınmış jurnalist Sabir Hacıyevə (Şaxtaxtı) qardaşı

**Səyyad Hacıyevin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**